**Təhsil millətin gələcəyidir!**

*Heydər Əliyev*

# AZƏRBAYCAN MÜƏLLİMİ

Azərbaycan Respublikasının Elm və Təhsil Nazirliyinin orqanı

25 aprel 2026-cı il №15 (9170) www.muallim.edu.az muallim@media.edu.az

# Şadıq ki, Latviyada 450-dən artıq azərbaycanlı tələbə təhsil alır



## Prezident İlham Əliyev

Şadıq ki, əməkdaşlığımızın çox güclü çərçivəsi var. Doqquz il əvvəl ölkələrimiz arasında imzalanmış Strateji Tərəfdaşlıq haqqında Bəyannamə hüquqi çərçivəni yaradır və münasibətlərimizi ən yüksək səviyyəyə qaldırır. Biz elə bunun əsasında tərəfdaşlığı müxtəlif sahələrdə inkişaf etdirmək üçün sıx çalışmışıq... Təbii ki, insanlar arasında təmaslar və təhsil sahəsi də var. Şadıq ki, Latviyada 450-dən artıq azərbaycanlı tələbə təhsil alır və əminəm ki, onların hamısı gözəl ölkənizdə olmaqdan məmnundur.

## Prezident Edgars Rinkeviçs

Birincisi, mən cənab Prezidenti və bütün Azərbaycan xalqını Azərbaycanla Ermənistan arasında sülh sazişi prosesinə başlanılması münasibətilə təbrik etmək istəyirəm... Ümid edirik ki, təkcə nəinki regionun təhlükəsizliyi üçün, ümumilikdə bütün dünya üçün önəmli olan bu sazişin yekunlaşmasını görəcəyik... Mən ilk dəfə Bakıda, Azərbaycanda 2002-ci ildə olmuşam. Sonra isə dəfələrlə gəlmişəm... Mən sadəcə hər zaman ölkənizin, xüsusilə də paytaxtınızın necə inkişaf etdiyini gördükdə heyran oluram.

*Azərbaycan Prezidenti İlham Əliyevin və Latviya Prezidenti Edgars Rinkeviçsin mətbuata bəyanatlarla çıxışlarından. 22 aprel 2026-cı il*

## Prezident Sərəncam imzaladı

### Lənkəran Dövlət Universitetinə rektor təyin edildi



Natiq Səhrab oğlu İbrahimov Lənkəran Dövlət Universitetinin rektoru təyin edilib.

Bu barədə Prezident İlham Əliyev Sərəncam imzalayıb.

Qeyd edək ki, o bu vəzifəyə ilk dəfə Prezident İlham Əliyevin müvafiq Sərəncamı ilə 2021-ci il aprelin 23-də təyin edilib.

## Müəllim adının qüdsiyyətini qorumaq, daha da yüksəltmək bizim hər birimizin vəzifəsidir



Cavanlıqda mən kənd müəllimi olmuşam. Düzdür, indi mənim adıma ədib, professor, alim deyirlər, amma mən müəllim adı ilə həmişə fəxr etmişəm və indi də edirəm. Mədəni cəmiyyətin, mədəni ailənin, mədəni vətəndaşın çox minnətdar olduğu zümrə müəllimlərdir. Gənc nəslin ilk nümunə, ibrət götürdüyü, sözünü, işini, hərəkətini təqlid etdiyi şəxs xalq müəllimidir".

Bax səh.5

## "Mir Cəlal Paşayev oğluna aldığı evi mənə verdi"



Elə insanlar var ki, bəzən təkcə onların ad və soyadını çəkmək belə yetərlidir ki, göz önündə həyat və fəaliyyətləri bütövlüklə canlansın. Azərbaycan ədəbiyyatşünaslığında özünəməxsus yer tutan, xeyirxahlığı ilə onu tanıyanların ürəklərində həmişəlik iz qoymuş, istedadlı yazıçı, gözəl alim Mir Cəlal Paşayev də məhz belə şəxsiyyətlərdən biridir. Tələbələrinin sevimlisi olan görkəmli pedaqoqun keçdiyi ömür yolunu vərəqləmək üçün onu özünə mənəvi ata bilən Azərbaycanın Xalq şairi Nəriman Həsənzadənin qonağı olduq.

Bax səh.5

## Füzuli şəhərində 1 nömrəli körpələr evi-uşaq bağçasının açılışı olub

İşğaldan azad edilən və yenidən qurulan Füzuli şəhərində aprelin 24-də 1 nömrəli körpələr evi-uşaq bağçasının rəsmi açılış mərasimi keçirilib.

Bax səh.2



## Məktəblilərimiz Beynəlxalq Mendeleyev Olimpiadasında 3 medal qazanıblar

Rusiyanın Moskva şəhərində keçirilən 60-cı Beynəlxalq Mendeleyev Olimpiadasında şagirdlərimiz 3 bürünc medal qazanıblar.

35 ölkədən 200 məktəblinin iştirak etdiyi bu nüfuzlu müsabiqədə Bakı şəhər Kimya-biologiya təmayüllü respublika liseyinin 11-ci sinif şagirdi Zaur Hacızadə, BDU-nun nəzdində "Gənc istedadlar" liseyinin 11-ci sinif şagirdi Elman Kərimli və Gəncə şəhər Fizika, riyaziyyat və informatika təmayüllü liseyin 11-ci sinif şagirdi Yaqub Baratlı fərqləniblər.




## Maksimum nəticə: 9 nəfər 300 bal topladı

Bax səh.4

## Qərbi Azərbaycanda milli təhsilimizə qarşı vandalizm aktları

Bax səh.6

## Gdansk Universitetinin azərbaycanlı müəllimi

Bax səh.7

## "Yerli sənayenin inkişafına töhfə vermək istəyirəm"

Bax səh.8

# FÜZULİ ŞƏHƏRİNDƏ 1 NÖMRƏLİ KÖRPƏLƏR EVİ-UŞAQ BAĞÇASININ AÇILIŞI OLUB

**İşğaldan azad edilən və yenidən qurulan Füzuli şəhərində aprelin 24-də 1 nömrəli körpələr evi-uşaq bağçasının rəsmi açılış mərasimi keçirilib.**






Açılış mərasimində iqtisadiyyat naziri Mikayıl Cabbarov, elm və təhsil naziri Emin Əmrullayev, Prezidentin Ağdam, Füzuli və Xocavənd rayonlarında xüsusi nümayəndəsi Emin Hüseynov, "LUKOIL" neft şirkətinin qurucusu Vahid Ələkbərov və "LUKOIL Azərbaycan" QSC-nin baş direktoru Rasim Əmrəliyev, Füzuli şəhər sakinləri iştirak ediblər.

Bildirilib ki, körpələr evi-uşaq bağçası 2 mərtəbəli, 240 yerlik olmaqla 2,4 hektar torpaq sahəsində inşa edilib. Binada qrup, inzibati, yataq otaqları, rəqs, idman və musiqi zalları, hovuz, soyunub-geyinmə otaqları, mətbəx, müasir avadanlıqlarla təchiz olunmuş metodika otağı, kompüter otağı, həkim otağı, dezinfeksiya otağı, izolyator palata, camaşırxana, tərəvəzlərin ilkin emalı sexi, tərəvəz sexi, ət-balıq sexi, quru ərzaq anbarı, işçi heyəti üçün yeməkxana, elektrik və server otaqları, həmçinin həyətində oyun meydançaları və digər zəruri infrastruktur qurulub. Burada uşaqların ilkin biliklərə yiyələnməsi, rahatlığı və əylənməsi üçün bütün zəruri şərait yaradılıb.

## Həssas kateqoriyadan olan uşaqların keyfiyyətli təhsilə çıxışının təmin edilməsi dövlət siyasətinin prioritet istiqamətlərindən biridir








### Elm və təhsil naziri internat məktəblərinin direktorları ilə görüşüb

Elm və təhsil naziri Emin Əmrullayev Bakı şəhəri üzrə fəaliyyət göstərən internat məktəblərinin direktorları ilə görüşüb.

Görüş zamanı internat məktəblərində təhsil alan valideyn himayəsindən məhrum olmuş, eləcə də sağlamlıq imkanları məhdud uşaqların təlim-tərbiyə prosesi, onların sosial müdafiəsi, psixoloji dəstək mexanizmləri və cəmiyyətə inteqrasiyası məsələləri geniş müzakirə olunub.

Nazir çıxışında qeyd edib ki, həssas kateqoriyadan olan uşaqların keyfiyyətli təhsilə çıxışının təmin edilməsi dövlət siyasətinin prioritet istiqamətlərindən biridir. Bu baxımdan internat məktəblərində tətbiq olunan xüsusi təhsil proqramlarının təkmilləşdirilməsi, fərdi yanaşmanın gücləndirilməsi və müasir tədris metodlarının genişləndirilməsi mühüm əhəmiyyət kəsb edir.

Görüşdə həmçinin mövcud vəziyyətin qiymətləndirilməsi aparılıb, internat məktəblərinin maddi-texniki bazasının gücləndirilməsi, müəllim heyətinin peşəkar inkişafı, eləcə də təhsilalanların sosial rifahının yüksəldilməsi istiqamətində görüləcək tədbirlər müzakirə olunub.

Direktorlar tərəfindən səsləndirilən təkliflər dinlənilib, prioritet istiqamətlər ətrafında fikir mübadiləsi aparılıb.

## Nazir Yunanıstanın ölkəmizdəki fövqəladə və səlahiyyətli səfiri ilə görüşüb



**Aprelin 22-də elm və təhsil naziri Emin Əmrullayev Yunanıstanın Azərbaycan Respublikasındakı fövqəladə və səlahiyyətli səfiri Maria Papakonstantinou ilə görüşüb.**

Görüş çərçivəsində Yunanıstan ilə elm və təhsil sahəsində cari əməkdaşlıq və gələcək inkişaf perspektivləri müzakirə edilib.

## Ümumdünya Şəhərsalma Forumunun On Üçüncü sessiyası ilə bağlı Bakıda tədrisin təşkilində müvafiq tənzimləmələr ediləcək

Elm və təhsil naziri Emin Əmrullayev Birləşmiş Millətlər Təşkilatının Ümumdünya Şəhərsalma Forumunun On Üçüncü sessiyasının (WUF13) keçirildiyi dövrdə Bakı şəhərində fəaliyyət göstərən təhsil müəssisələrinin fəaliyyətinin tənzimlənməsi məqsədilə əmr imzalayıb.

Əmrə əsasən, WUF13-ün keçiriləcəyi 17-22 may tarixlərində Bakı şəhərində fəaliyyət göstərən təhsil müəssisələrində (məktəbəqədər və internat tipli ümumi təhsil müəssisələri istisna olmaqla) tədris və təlim-tərbiyə prosesinin təşkilində bəzi dəyişikliklər ediləcək.

Belə ki, ümumi təhsil müəssisələrinin məktəbəhazırlıq qrupları və ibtidai sinifləri üzrə mayın 18-dən 22-dək tətil (1-5 may tarixləri əvəzinə) müəyyən ediləcək.

Bundan başqa, Pirallahı, Qaradağ, Suraxanı, Sabunçu və Nizami rayonları istisna olmaqla, Bakı şəhərinin digər rayonlarında fəaliyyət göstərən ümumi təhsil müəssisələrinin V-XI siniflərində dərslər mayın 18-dən 22-dək distant (məsafədən) formada keçiriləcək.

Eyni zamanda Bakı şəhərində yerləşən peşə, orta ixtisas və ali təhsil müəssisələrində də tədrisin mayın 18-dən 22-dək distant (məsafədən) formada təşkili əmrdə qeyd olunur.

## Emin Əmrullayev Pekin Kimya Texnologiya Universitetinin rektoru ilə görüşüb



**“PKTU—BMU Mühəndislik fakültəsi” iki ölkə arasında təhsil əlaqələrinin inkişaf etdirilməsi baxımından xüsusi əhəmiyyət kəsb edir**

**Elm və təhsil naziri Emin Əmrullayev ölkəmizdə səfərdə olan Pekin Kimya Texnologiya Universitetinin (PKTU) rektoru Tan Tianvei ilə görüşüb.**

Görüşdə elm və ali təhsil, o cümlədən elmi-tədqiqat sahəsində PKTU ilə inkişaf istiqamətləri müzakirə edilib.

Görüş çərçivəsində Bakı Mühəndislik Universiteti (BMU) ilə PKTU arasında 6 ixtisas üzrə həyata keçirilən ikili diplom proqramları ətrafında fikir mübadiləsi aparılıb, sözügedən əməkdaşlığın yeni ixtisaslar və sahələr üzrə genişləndirilməsi perspektivləri vurğulanıb.

Eyni zamanda BMU-da PKTU ilə birgə yeni yaradılmış “PKTU—BMU Mühəndislik fakültəsi”nin iki ölkə arasında təhsil əlaqələrinin inkişaf etdirilməsi baxımından xüsusi əhəmiyyət kəsb etdiyi qeyd edilib.

## Elm və təhsil naziri "Yüksəliş" müsabiqəsinin qalibləri ilə görüşüb

**Elm və təhsil naziri Emin Əmrullayev mentorluq proqramı çərçivəsində beşinci “Yüksəliş” müsabiqəsinin qalibləri Toğrul Xəlilov və Kamran Sadıxlı ilə görüşüb.**

Görüş zamanı qaliblərin peşəkar inkişafı, idarəetmə bacarıqlarının gücləndirilməsi və dövlət idarəçiliyində insan kapitalının inkişafı məsələləri ətrafında fikir mübadiləsi aparılıb.

Nazir perspektivli kadrların potensialının düzgün istiqamətləndirilməsinin və onların qərarvermə proseslərinə cəlb olunmasının əhəmiyyətini vurğulayıb, onlara öz bilik və bacarıqlarını davamlı şəkildə inkişaf etdirməyi tövsiyə edib.

Görüş çərçivəsində qaliblərin sualları cavablandırılıb, onların fərdi inkişaf planları və karyera hədəfləri müzakirə olunub. Nazir qaliblərə gələcək fəaliyyətlərində uğurlar arzulayıb və mentorluq proqramının onların peşəkar formalaşmasına mühüm töhfə verəcəyini qeyd edib.

Qeyd edək ki, “Yüksəliş” müsabiqəsi Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin 26 iyul 2019-cu il tarixində imzaladığı Sərəncamla təsis olunub. Müsabiqə qalibləri mentorlar tərəfindən birillik fərdi inkişaf planı və özününkişaf üçün 20 min manat məbləğində pul mükafatı əldə edirlər.

Sayca altıncı “Yüksəliş” müsabiqəsinin keçirilməsi ilə bağlı Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyev tərəfindən 10 dekabr 2025-ci il tarixində müvafiq Sərəncam imzalanıb.

**Emin Əmrullayev qaliblərə öz bilik və bacarıqlarını davamlı şəkildə inkişaf etdirməyi tövsiyə edib**









# Apellyasiya Şurasının növbəti iclasları keçirilib

**Aprelin 17-də və 24-də elm və təhsil nazirinin müavini, nazirliyin Apellyasiya Şurasının sədri Firudin Qurbanovun rəhbərliyi ilə Apellyasiya Şurasının növbəti iclası keçirilib.**



Aprelin 17-də keçirilən iclasda Elm və Təhsil Nazirliyi yanında Məktəbəqədər və Ümumi Təhsil üzrə Dövlət Agentliyinin Qarabağ Regional Təhsil İdarəsinin Maliyyə-iqtisadiyyat sektorunun aparıcı məsləhətçisi vəzifəsinə namizəd Anar Əsədzadənin, Şəki-Zaqatala Regional Təhsil İdarəsinin Maliyyə-iqtisadiyyat sektorunun aparıcı məsləhətçisi vəzifəsinə namizəd Vüsal Rəsulovun, Quba-Xaçmaz Regional Təhsil İdarəsinin Tədrisin keyfiyyəti sektorunun məsləhətçisi vəzifəsinə namizəd Ayşə Əmrahovanın, Bakı Şəhəri üzrə Təhsil İdarəsinin Təhsilin keyfiyyətinə nəzarət sektorunun aparıcı məsləhətçisi vəzifəsinə namizədlər Püstə Abduyeva İmanzadənin və Validə Kərimzadənin, həmin təhsil idarəsinin Ümumi təhsilin təşkili sektorunun böyük məsləhətçisi vəzifəsinə namizəd Aytən Hüseynovanın və Hüquq, kargüzarlıq və vətəndaşlarla iş sektorunda məsləhətçi vəzifəsinə namizəd Fərid Fərhadovun şikayətlərinə baxılıb.

Aprelin 24-də keçirilən iclasda Elm və Təhsil Nazirliyi yanında Məktəbəqədər və Ümumi Təhsil üzrə Dövlət Agentliyinin Qarabağ Regional Təhsil İdarəsinin Maliyyə-iqtisadiyyat sektorunun aparıcı məsləhətçisi vəzifəsinə namizədlər Tural Kərimovun, Günel Buludovanın, Fəxri Verdizadənin və Emil Həsənovun, Elm və Təhsil Nazirliyi yanında Elm və Ali Təhsil üzrə Dövlət Agentliyinin Maliyyə və təsərrüfat sektorunun məsləhətçisi vəzifəsinə namizəd Səbinə Əmrahovanın, Quba-Xaçmaz Regional Təhsil İdarəsinin Xaçmaz rayonu üzrə təhsil sektorunun aparıcı məsləhətçisi vəzifəsinə namizəd Fatimə Məmmədovanın, Bakı Şəhəri üzrə Təhsil İdarəsinin Ümumi təhsilin təşkili sektorunun böyük məsləhətçisi vəzifəsinə namizəd Çimnaz Əmişovanın şikayətlərinə baxılıb.

İclaslar "Microsoft Teams" platforması üzərindən keçirilib.

İclaslarda müsahibə komissiyası üzvlərinin təqdim etdiyi məlumat və videogörüntülər əsasında şikayətlər araşdırılıb, 4 şikayətin təmin edilməsi, 5 şikayətin qismən təmin edilməsi, 2 şikayətin təmin edilməməsi, 3 şikayət üzrə icraata xitam verilməsi barədə Şura tərəfindən qərarlar qəbul olunub.

# Əldə olunan nəticələr həm məktəbin, həm müəllimin, həm də ailənin birgə məsuliyyətinin göstəricisidir



## Nazir müavini Həsən Həsənli Şamaxıda müəllim və valideynlərlə görüşüb






**Aprelin 24-də elm və təhsil nazirinin müavini Həsən Həsənli Şamaxı rayonuna səfər edib.**

Səfər çərçivəsində əvvəlcə Şamaxı Rayon İcra Hakimiyyətinin başçısı Tahir Məmmədov ilə birlikdə ümummilli lider Heydər Əliyevin abidəsi ziyarət olunub, önünə gül dəstələri düzülüb.

Səfər zamanı Dağlıq Şirvan regionu üzrə bir qrup valideyn və müəllimlərlə görüşlər keçirilib.

Valideynlərlə görüşdə şagirdlərin əldə etdiyi nəticələr, ailə-məktəb əməkdaşlığının gücləndirilməsi müzakirə olunub.

Nazir müavini şagirdlərin tədris nəticələrinin yaxşılaşdırılmasının əsas prioritet olduğunu qeyd edərək bildirib ki, əldə olunan nəticələr həm məktəbin, həm müəllimin, həm də ailənin birgə məsuliyyətinin göstəricisidir.

Valideynlər məktəb-şagird-ailə əməkdaşlığının gücləndirilməsinin, şagirdlərin motivasiyasının artırılmasının və uğurlu nəticə göstərən şagirdlərin stimullaşdırılmasının vacibliyini bildiriblər.

Görüşdə erkən yaş təhsilinin, xüsusilə bağça və ibtidai təhsilin keyfiyyətinin artırılmasının gələcək nəticələrə birbaşa təsiri də vurğulanıb.

İşə qəbul və sertifikatlaşdırma imtahanlarında yüksək nəticə əldə edən müəllimlərin iştirakı ilə baş tutan görüşdə təhsilverənlərin peşəkar inkişafı, dərs keyfiyyətinin yüksəldilməsi, qiymətləndirmə meyarları, tədris prosesində innovativ yanaşmaların tətbiqi və gələcək hədəflər ətrafında fikir mübadiləsi aparılıb. Eyni zamanda tam ştatlı məşğulluq modelinin tətbiqi və sertifikasiya prosesinin tədrisin keyfiyyətinə müsbət təsiri qeyd olunub.

Həsən Həsənli çıxışında təhsil işçilərinin öz davranışları ilə şagirdlər üçün nümunə olduqlarını qeyd edərək bunun uşaqların tərbiyəsində mühüm rol oynadığını vurğulayıb.

Görüşlərdə həmçinin regionlarda STEAM mərkəzlərinin sayının artırılması, inklüziv siniflərdə dərs deyən müəllimlərin peşəkar bacarıqlarının inkişaf etdirilməsi ilə bağlı təkliflər irəli sürülüb.

Görüşlərin yekununda təhsil mühitinin təkmilləşdirilməsi və nəticəyönümlü yanaşmanın gücləndirilməsi üçün kompleks tədbirlərin vacibliyi qeyd olunub.

**ADA Universitetində "Yeni çağırışlar" kitabının təqdimat mərasimi keçirilib. Təqdimat mərasimində elm və təhsil nazirinin müavini Kənan Kərimzadə, millət vəkilləri, ali təhsil müəssisələrinin rektorları, tanınmış ziyalılar, ictimai xadimlər, məktəb direktorları, müəllimlər və digər qonaqlar iştirak ediblər.**




# Nazir müavini "Yeni çağırışlar" kitabının təqdimat mərasimində iştirak edib

## "Yeni çağırışlar" kitabı müasir təhsil mühitində baş verən transformasiyaları daha dərindən anlamaq üçün əhəmiyyətli platforma rolunu oynayır






"Yeni çağırışlar" kitabının müəllifi, "T-Network" təhsil işçilərinin təcrübə və kommunikasiya platformasının rəhbəri Cəfər Mənsimi salamlama nitqi ilə çıxış edərək bildirib ki, kitabda dünyanın aparıcı təhsil mütəxəssisləri ilə aktual mövzuları əhatə edən müsahibələr yer alır. Cəfər Mənsiminin sözlərinə görə, geniş oxucu kütləsi üçün nəzərdə tutulan "Yeni çağırışlar" kitabında təhsildə köklü dəyişikliklər üçün yol xəritəsi təqdim olunur, daha təhsilli gələcək naminə diqqətəlayiq təcrübələr və dünya standartları əksini tapır.



Kitabda təhsildə dünya standartları və liderlik, effektiv öyrənmə mühiti, rəqəmsal dünyada öyrənmə, yaradıcı məktəblər, qiymətləndirmə, ömürboyu öyrənmə və yeni səriştələr, təhsilin gələcəyi, yeni dövrün öyrənmə mədəniyyəti, müəllim nüfuzu və digər mövzulara toxunulur.

Tədbirə evsahibliyi edən ADA Universitetinin prorektoru Vəfa Kazdal çıxışında kitabın qlobal təhsil fəlsəfəsini özündə ehtiva etdiyini və müsahibələrin praktik baxımdan dəyərli dərslər təqdim etdiyini diqqətə çatdırıb.

Çıxış edən nazir müavini Kənan Kərimzadə bildirib ki, "Yeni çağırışlar" kitabı müasir təhsil mühitində baş verən transformasiyaları daha dərindən anlamaq üçün əhəmiyyətli platforma rolunu oynayır. Onun sözlərinə görə, kitab oxuculara dünyanın müxtəlif ölkələrində fəaliyyət göstərən nüfuzlu universitetlərin təcrübəsi, qabaqcıl pedaqoji yanaşmaları və liderlik modelləri ilə tanış olmaq imkanı yaradır.

Nazir müavini vurğulayıb ki, nəşr yalnız nəzəri baxışları deyil, eyni zamanda praktik yanaşmaları da özündə birləşdirərək Azərbaycan təhsil sistemində həyata keçirilən islahatlara dəyərli töhfə verir. Kənan Kərimzadə bildirib ki, "Yeni çağırışlar" təhsilin gələcəyinə dair strateji baxışın formalaşdırılması baxımından mühüm əhəmiyyət kəsb edir və bu istiqamətdə düşünən hər bir təhsil iştirakçısı üçün faydalı mənbədir.

Millət vəkili Ceyhun Məmmədov, UNEC-in rektoru Ədalət Muradov, Əməkdar elm xadimi Şahlar Əsgərov və Əməkdar müəllim Asif Cahangirov çıxışlarında kitabın yeni səriştələr, təhsilin gələcəyi, öyrənmə mədəniyyəti və müəllim nüfuzu kimi mühüm mövzuları əhatə etdiyini qeyd edərək onu təhsil sahəsində baş verən dəyişikliklərin göstəricisi kimi dəyərləndiriblər.

Qeyd edək ki, kitab Elm və Təhsil Nazirliyinin rəsmi "Facebook" səhifəsində canlı yayımlanan "Yeni çağırışlar" müzakirə proqramı əsasında hazırlanıb. Kitabın ön sözü İqtisadi Əməkdaşlıq və İnkişaf Təşkilatının Təhsil və bacarıqlar üzrə direktoru, PISA - Beynəlxalq Şagird Qiymətləndirilməsi Proqramının yaradıcısı Andreas Şleyxer tərəfindən yazılıb.

Kitabdakı müsahiblər sırasında təhsil nazirləri, dünyanın ən yüksək reytinqli ali təhsil müəssisələrindən olan Massaçusets Texnologiya İnstitutu, Harvard, Stenford, Toronto və digər universitetlərin professorları, İqtisadi Əməkdaşlıq və İnkişaf Təşkilatı, Dünya Bankı, "Coursera", "Khan Academy", "edX", Bill və Melinda Geyts Fondu, Dünya Təhsil Forumu, "Microsoft" və UNICEF kimi qurumların rəhbər şəxsləri, həmçinin UNESCO-nun Təhsilin Gələcəyi Komissiyasının üzvləri, "Google" və "Apple" kimi nüfuzlu şirkətlərin mütəxəssisləri, bestseller müəllifləri və təhsil mütəfəkkirləri yer alırlar.

"Yeni çağırışlar" kitabı Harvard Universitetinin nüfuzlu professoru, "çoxnövlü intellekt" nəzəriyyəsinin banisi Hovard Qardner və digər dünyaşöhrətli təhsil mütəfəkkirləri tərəfindən yüksək qiymətləndirilib.

# Qarabağ regionu üzrə təhsil işçiləri üçün "Antikorrupsiya davranış modelinin formalaşdırılması" mövzusunda təlim keçirilib





**Aprelin 24-də "Korrupsiyaya qarşı mübarizənin gücləndirilməsinə dair 2022-2026-cı illər üçün Milli Fəaliyyət Planı" çərçivəsində Tərtər şəhərində Qarabağ regionu üzrə təhsil işçiləri üçün "Antikorrupsiya davranış modelinin formalaşdırılması" mövzusunda təlim keçirilib.**

Açılış nitqi ilə çıxış edən Tərtər Rayon İcra Hakimiyyətinin başçısı Müstəqim Məmmədov təlim iştirakçılarını salamlayaraq onlara uğurlar arzulayıb və sözügedən sahədə maarifləndirmə tədbirlərinin rolunu xüsusi qeyd edib.

Çıxış edən Elm və Təhsil Nazirliyinin Aparat rəhbəri Mətin Kərimli bildirib ki, Baş Prokurorluqla birgə həyata keçirilən antikorrupsiya maarifləndirmə tədbirləri ardıcıl xarakter daşıyır. Əlavə edib ki, ötən il ərzində 30 476 nəfər rəhbər, pedaqoji heyət və şagirdin iştirakı ilə 839 maarifləndirici tədbir təşkil edilib. Bu rəqəmlər göstərir ki, korrupsiyaya qarşı mübarizə yalnız inzibati tədbirlərlə deyil, həm də düşüncə və davranış dəyişikliyi ilə aparılır.

Aparat rəhbəri vurğulayıb ki, regionlarda keçirilən silsilə təlimlər və müxtəlif mövzuları əhatə edən proqramlar təhsil işçilərinin məlumatlılığını və məsuliyyət hissini artırmağa xidmət edir. Eyni zamanda beynəlxalq təcrübənin öyrənilməsi bu sahədə fəaliyyətin daha effektiv qurulmasına imkan yaradır. Diqqətə çatdırıb ki, korrupsiyaya qarşı mübarizə yalnız hüquqi deyil, həm də mənəvi məsələdir və bu prosesdə dürüstlük, etik davranış və şəxsi məsuliyyət əsas rol oynayır.

Çıxışlardan sonra Baş Prokurorluğun Elm -Tədris Mərkəzinin rəisi Fazil Həsənəliyev, Mərkəzin Prokurorluq işçilərinin fəaliyyətinin qiymətləndirilməsi və peşə hazırlığının təşkili şöbəsinin rəisi Nigar Qələndərli "Korrupsiyaya qarşı mübarizə sahəsində milli mübarizə strategiyası: "Korrupsiyaya qarşı mübarizənin gücləndirilməsinə dair 2022-2026-cı illər üçün Milli Fəaliyyət Planı"-nın məqsədləri və hədəfləri", Baş prokuror yanında Korrupsiyaya qarşı Mübarizə Baş İdarəsinin Mütəxəssis təhlilləri şöbəsinin rəis müavini Kamil Kamilli "Təhsil sahəsində korrupsiya hüquqpozmalarına qarşı qabaqlayıcı tədbirlərin əhəmiyyəti", Baş prokuror yanında Korrupsiyaya qarşı Mübarizə Baş İdarəsinin Təşkilati və informasiya təminatı idarəsinin prokuroru İlkin Babazadə "Dövlət qulluqçularının etik davranış qaydaları və milli qanunvericilikdə maraqlar toqquşmasının qarşısının alınması imkanları", Tərtər rayon prokuroru Fuad Məmmədov "Korrupsiyaya qarşı mübarizə sahəsində preventiv tədbirlərin nəticələri" mövzularında təqdimatlar ediblər, iştirakçıları məlumatlandırıblar.

Sonda qarşılıqlı fikir mübadiləsi aparılıb və təhsil işçilərini maraqlandıran suallar cavablandırılıb.

# Aparat rəhbəri Tərtərdə təhsil müəssisələrinin fəaliyyəti ilə tanış olub





**Aprelin 24-də Elm və Təhsil Nazirliyinin Aparat rəhbəri Mətin Kərimli Tərtər rayonuna səfər edib.**

Səfər çərçivəsində Aparat rəhbəri Tərtər şəhəri Şikar Şikarov adına 5 nömrəli tam orta ümumtəhsil məktəbi və Tərtər şəhəri 2 nömrəli körpələr evi-uşaq bağçasını ziyarət edib, tədris prosesi və müəssisələrin şəraiti ilə maraqlanıb. Məktəblə tanışlıq zamanı "Rəqəmsal bacarıqlar" layihəsi, eləcə də çağırışaqədərki hazırlıq fənni üzrə dərs prosesi izlənilib, şagird və müəllimlərlə söhbət aparılıb, onların təklif və rəyləri dinlənilib.

Səfər çərçivəsində Tərtər Peşə Məktəbinə də baxış keçirilib, burada tədris imkanları, ixtisas hazırlığı və əmək bazarının tələblərinə uyğun kadr hazırlığı istiqamətində görülən işlər barədə məlumat alınıb. Aparat rəhbəri sözügedən müəssisədə peşə hazırlığının əhatəliliyi və səmərəliliyinin artırılması, işəgötürənlərin peşə təhsili prosesində yaxından iştirakı, ölkə iqtisadiyyatı üçün rəqabətqabiliyyətli ixtisaslı kadrların hazırlanmasının vacibliyini qeyd edib və bununla bağlı müvafiq tapşırıqlar verib.

# Təhsilalan və təhsilverənlərin vergi mədəniyyəti və maliyyə savadlılığının artırılmasına dair tədbirlərə başlanılır

**Elm və Təhsil Nazirliyi ilə İqtisadiyyat Nazirliyi yanında Dövlət Vergi Xidməti arasında əməkdaşlıq çərçivəsində təhsilalan və təhsilverənlər arasında vergi mədəniyyəti və maliyyə savadlılığının artırılmasına dair 2026-cı il üzrə Tədbirlər Planı təsdiqlənib.**

Tədbirlər Planına əsasən, ümumi təhsil pilləsində təlim-tədris və idarəetmə prosesinə vergi mədəniyyəti və maliyyə savadlılığının sistemli inteqrasiyası, təhsilalanlar arasında müsabiqələrin və maarifləndirici ekskursiyaların təşkili, peşə və ali təhsil müəssisələrində tələbələrin vergi savadlılığının və işə qəbul imkanlarının artırılması, həmçinin elektron maarifləndirici resursların hazırlanması və paylaşılması nəzərdə tutulur. Bu çərçivədə orta və ali təhsil müəssisələrində vergi ilə bağlı biliklərin daha interaktiv və müasir tədris metodları ilə təqdim edilməsi gözlənilir.

Eyni zamanda, maliyyə və vergi sahələri üzrə elmi araşdırmalar üçün məlumat mübadiləsinin təşkili, gənc tədqiqatçıların dəstəklənməsi, ali təhsil müəssisələrində bu sahəni tədris edən müəllimlərin peşəkar inkişafına yönəlmiş təlimlərin keçirilməsi istiqamətində işlər aparılacaq. Bununla yanaşı, gender bərabərliyi və inklüzivliyin təşviqi məqsədilə müvafiq tədbirlərdə tələbə xanımların təmsilçiliyinin artırılması, eləcə də vergilərin ödənilməsinin vacibliyini və düzgün vergi davranışını təşviq edən materialların hazırlanaraq ictimailəşdirilməsi planlaşdırılır.

Qeyd olunan tədbirlər gənc nəslin erkən yaşlardan vergi mədəniyyətinə yiyələnməsi, vətəndaş məsuliyyəti və maliyyə intizamı prinsiplərinin formalaşdırılması baxımından mühüm əhəmiyyət daşıyır.

# 9 nəfər 300 bal topladı

## Buraxılış imtahanında maksimum nəticə göstərən məktəblilərin uğur hekayəsi

**Tam (11 illik) orta təhsil səviyyəsi üzrə 15 mart 2026-cı il tarixində keçirilmiş buraxılış imtahanının nəticələri elan olunub. Bu imtahanda iştirakı nəzərdə tutulan 58144 nəfərdən 379 nəfər imtahana gəlməyib. İmtahan qaydalarını pozduğu üçün 10 nəfər imtahandan xaric olunub. İmtahan iştirakçıları arasında 9 nəfər 300 bal toplamaqla ən yüksək nəticəni göstərib.**

**15 mart 2026-cı il tarixində keçirilmiş buraxılış imtahanında 300 bal toplayan şagirdlərin siyahısı**

| | | |
|---|---|---|
| 1 | Zərbəliyeva Zəhra Polad qızı | Bakı şəhəri, 18 saylı orta məktəb |
| 2 | Həsənli Bəxtiyar Vüqar oğlu | Bakı şəhəri, Fizika, riyaziyyat və informatika təmayüllü lisey |
| 3 | Tağızadə Samir Hikmət oğlu | Sumqayıt şəhəri, Təbiət elmləri təmayüllü gimnaziya |
| 4 | Qayıbova Emiliya Vitalik qızı | Qusar rayonu, Yuxarı Zeyxur kənd orta məktəbi |
| 5 | Məcidli Burlaxatun Bəhruz qızı | Mingəçevir şəhəri, Şəhər təbiət-riyaziyyat və humanitar elmlər təmayüllü lisey |
| 6 | Vəlizadə Rafiq Ramil oğlu | Bakı şəhəri, Fizika,riyaziyyat və informatika təmayüllü lisey |
| 7 | Əsgərov Əli Mübariz oğlu | Sumqayıt şəhəri, 17 saylı orta məktəb |
| 8 | Məmmədli Nəslihan Ruhin qızı | Bakı şəhəri, Humanitar fənlər təmayüllü məktəb-lisey |
| 9 | Xammədova Zəhra Xamməd qızı | Bakı şəhəri, Humanitar fənlər təmayüllü məktəb-lisey |

## Kənd məktəbinin 300 bal toplayan şagirdi: "Repetitorsuz hazırlaşmışam"



**Quba-Xaçmaz Regional Təhsil İdarəsinin tabeliyində fəaliyyət göstərən Qusar rayonu Yuxarı Zeyxur kənd tam orta məktəbinin şagirdi Qayıbova Emiliya Vitalik qızı da maksimum 300 bal toplayanlar sırasındadır.**

"Azərbaycan müəllimi" nümunəvi məktəblinin uğur hekayəsini təqdim edir.

Qusar rayonu Yuxarı Zeyxur kənd orta məktəbinin XI sinif şagirdi Emiliya Qayıbova qeyd edir ki, uğurunun əsas səbəbi öz üzərində çox çalışmağı olub: "Mən öz məktəbimdə müəllimlərimin tədrisi ilə hazırlaşmışam, əlavə repetitor yanına getməmişəm. Məktəbimizdə kifayət qədər gözəl təhsil verildiyi üçün uğurum müəllimlərimin və zəhmətimin nəticəsidir. Aşağı siniflərdən yaxşı bünövrə qoyduğum üçün imtahanda mənə çətin olmadı".

Emiliya IX sinif buraxılış imtahanında 297 bal toplayıb. "Bir sualda səhvim olduğu üçün IX sinifdə 300 bal toplaya bilməmişdim. Çox sevinirəm ki, indi arzumu həyata keçirə bildim. Cavablar açıqlanmamışdan yüksək nəticə gözləyirdim. Sadəcə şübhə etdiyim açıq tipli suallar var idi. 300 bal topladığımı böyük bir sevinc hissi ilə qarşıladım. Yanımda valideynlərim var idi, onlar da olduqca sevindilər".

Emiliya bu il riyaziyyat fənni üzrə RFO-nun final mərhələsində iştirak edib. Riyaziyyat fənni üzrə nəticələr hələ açıqlanmadığı üçün nəticəni bilməsə də, medal qazanacağına böyük ümid bəsləyir: "Sevdiyim fənlər arasında ən başda riyaziyyat durur. RFO-ya hazırlıqda riyaziyyat müəllimim Elşən Kərimovun böyük zəhməti var. Texniki fənlərə yönümlüyəm, fizika, informatika kimi fənlərə xüsusi maraq göstərirəm. I ixtisas qrupu üzrə "Kompüter elmləri" ixtisasına hazırlaşıram. Ali məktəb seçimim hələ dəqiq yoxdur, yaxın gələcəkdə seçim edəcəyəm. Gələcəkdə proqramçı olaraq yaxşı mütəxəssis olmağı arzu edirəm, bu sahə üzrə uğur qazanmağı hədəfləmişəm".

Uğurlu şagird abituriyentlərə öz üzərlərində səylə çalışmağı, uğur qazanacaqlarına inanmalarını məsləhət görür: "Bütün uğurların səbəbi çox çalışmaqdan gəlir".

**Lamiyyə ƏLİMƏRDANOVA, Abşeron-Xızı və Quba-Xaçmaz üzrə regional təmsilçi**

## "Mənim uğur devizim budur..."



**Martın 15-də keçirilən buraxılış imtahanında ən yüksək nəticə göstərərək 300 bal toplayan 9 abituriyentdən biri də Nəslihan Məmmədovadır . O, Bakı şəhərində yerləşən Humanitar fənlər təmayüllü liseyin şagirdidir.**

"Azərbaycan müəllimi"-nə danışan Nəslihan bildirib ki, imtahandan maksimum nəticə gözləyirmiş və bu hədəfinə nail olub. O, 9-cu sinif buraxılış imtahanında 286 bal toplayıb.

Gələcək planlarından danışan Nəslihan qeyd edib ki, I ixtisas qrupuna sənəd verib. Əsas arzusu mühəndis olmaqdır.

Sonda o, digər şagirdlərə də tövsiyələrini bölüşüb: "Nə olursa-olsun, ruhdan düşməsinlər. Çox test işləsinlər və etdikləri səhvlər üzərində mütləq çalışsınlar. Mənim uğur devizim budur: 'Səhvlər hələ də çox çalışdığınızın sübutudur".

**Tural NƏSİROV, Şirvan-Salyan və Mil-Muğan üzrə regional təmsilçi**

## "Kompüter mühəndisi olacağam"- Buraxılış imtahanında birincilik qazanan Bakı məktəblisi



**Martın 15-də keçirilən buraxılış imtahanında 300 bal toplayan şagirdlərdən biri olan Rafiq Vəlizadə Fizika, riyaziyyat və informatika təmayüllü liseyin şagirdidir.**

O, "Azərbaycan müəllimi"nə bildirib ki, bu nəticəni əldə etməsinə çox sevinir:

"1 ildir hazırlaşıram. Yüksək nəticə əldə edəcəyimi gözləyirdim, ancaq 300 bal toplayacagıma şübhə ilə yanaşırdım. Məni digər şagirdlərdən heç nə ayırmır, mənə görə, buraxılış imtahanında topladığım bal çox şey ifadə etmir".

O həm də olimpiada qalibidir: "7-ci sinifdə respublika fənn müsabiqəsində fizika fənni üzrə qızıl, 9-cu sinifdə Respublika fənn olimpiadasında fizika fənni üzrə bürünc medal qazanmışam".

Yüksək nəticə qazanmağında müəllimlərinin xidmətini xüsusi qeyd edir:

"Liseyimizdə tədris mükəmməl səviyyədədir, məktəb müəllimlərim mənə də, yoldaşlarıma da çox dəstək olublar".

Kompüter mühəndisi olacağını deyən Rafiq universitet seçimi ilə bağlı hələ qərar verməyib. Gələcək planlarında xaricdə təhsil də var: "Arzum Azərbaycanda bakalavr təhsili alıb sonradan xaricdə təhsil səviyyəmi, peşəkarlığımı artırmaqdır".

## "Bu nəticəni gözləmirdim"- 300 bal toplayan Zəhra



**Martın 15-də keçirilən buraxılış imtahanında ən yüksək bal toplayan 9 abituriyentdən biri də Zəhra Zərbəliyeva Bakıda 18 nömrəli tam orta məktəbin şagirdidir.**

O, "Azərbaycan müəllimi"nə 300 bal toplayacağını gözləmədiyini deyib: "Düşünürdüm ki, balım 290-dan bir az artıq olacaq. Amma rəfiqələrim həmişə deyirdilər ki, 300-dən aşağı nəticə gözləmə. Yenə də balımı görəndə həddindən çox sevindim".

Zəhra arzularından da danışıb: "Qəbul imtahanından da bacardığım qədər yüksək bal toplayıb ADA Universitetinə ödənişsiz əsaslarla qəbul olmaq istəyirəm. İnformasiya texnologiyaları üzrə mütəxəssis olacağam".

Onun fikrincə, bu nəticənin ən böyük səbəbi onun birinci sinifdən yaxşı oxumağıdır: "Uşaqlıqdan daim hər fənni oxumuşam, əlaçı olmuşam. Və düşünürəm ki, kiçik yaşlarımdan yaxşı oxuduğum üçün bu nəticəni yığmağa nail oldum. Valideynlərim və müəllimlərimin üzərimdə əziyyəti böyükdür".

**Ruhiyyə DAŞSALAHLI**

# Müəllim adının qüdsiyyətini qorumaq, daha da yüksəltmək bizim hər birimizin vəzifəsidir

## Mir Cəlal Paşayevin Azərbaycan müəllimlərinin IV qurultayında çıxışı

**"Cavanlıqda mən kənd müəllimi olmuşam. Düzdür, indi mənim adıma ədib, professor, alim deyirlər, amma mən müəllim adı ilə həmişə fəxr etmişəm və indi də edirəm. Mədəni cəmiyyətin, mədəni ailənin, mədəni vətəndaşın çox minnətdar olduğu zümrə müəllimlərdir. Gənc nəslin ilk nümunə, ibrət götürdüyü, sözünü, işini, hərəkətini təqlid etdiyi şəxs xalq müəllimidir".**

Müəllim xalq ziyalılarının xarakterik simasıdır. İctimai şüurun müəyyənləşməsi, büllurlaşmasında, yeni nəslin cismən, zehnən müasir yetişməsində müəllimlərin xidmətləri böyükdür və cild-cild kitablara layiqdir.

Müəllim adının qüdsiyyətini qorumaq, daha da yüksəltmək bizim hər birimizin vəzifəsidir. Bu, hər bir müəllimin vəzifəsidir. Zəhmətsiz nemətə tamah salan, böyüklərə yaltaqlanan, özündən asılı olanlardan istifadə etməyə çalışan adam müəllim adına yaddır.

Uşaqlar ən həssas, ən ayıq, ən səmimi insanlardırlar. Onların yanında bir sözün yalan çıxdımı, dərhal hörmətin düşəcək. Səni qaba bir hərəkətdə, çirkin bir əməldə gördülərmi, onların nəzərində nəinki təkcə sənin, bütün müəllim adı daşıyanların nüfuzu enəcək. Uşaqların iti müşahidə, amansız mühakiməsi qarşısında ehtiyatlı olun! Onların hörmətini qazanmağa çalışın. Camaat arasında hörmət qazanmayan müəllimin sözündə kəsər olmaz. Müəllimlər bilir ki, dəcəl uşağı təlqin edib ləyaqətli vətəndaş yetirəndə duyduğun sevinc qibtəyə layiqdir.

Ədəbiyyat dərsini mən şəxsən yalnız ədəbiyyat dərsi kimi düşünmürəm. Uşaqların, gənclərin xarakterinin kamilləşməsində, müəyyən peşəni sevməsində, həyata münasibətlərinin büllurlaşmasında ədəbiyyatın, xüsusən, mühüm əsərlərin təsiri böyükdür. Ədəbiyyatın təbliği müəllimlərimizin şərəf işidir. Bu ədəbiyyat həm fikri, həm etik, həm estetik tərbiyənin kəsərli silahıdır. Bu, ədəbiyyatı sevdirmək — uşağın zehnini işıqlandırmaq deməkdir. Odur ki, ədəbiyyat dərsinin məzmununa, metoduna, təşkilinə artıq diqqət yetirilməlidir. Yenidən qurulmaqda olan məktəblərimizdə ədəbiyyat proqramlarının mütləq yenidən tərtibi və geniş müzakirəsinə nail olmalıyıq.

Ümumiyyətlə, orta məktəb proqram və dərslikləri köhnəlmişdir. Orta məktəb, ədəbiyyat proqramlarının, dərsliklərinin yaradılmasında orta məktəb müəllimləri iştirak etmirlər, və ya az iştirak edirlər. Məgər, 20-25 illik zəngin təcrübə sahibi olan, məktəbin və məktəblinin hazırkı tələbini hər kəsdən yaxşı duyan və bilən qocaman müəllimlər bu işə az fayda verə bilərlər? Məncə, burada da orta məktəb müəllimlərinin hüququnu bərpa etmək lazımdır.

Məktəbi və təhsil-tərbiyəni yenidən quran fədakar müəllimlərimizə hərtərəfli kömək etmək üçün bundan sonra da bir sıra faydalı tədbirlər görmək lazım gələcəkdir. Xalq maarifinin, pedaqojisinin tarixi, klassik müəllimlər haqqında monoqrafiyalar yaradılmalıdır. Akademiyanın ictimai elmlər bölməsində heç olmasa xüsusi şöbə yaradılmalıdır.

Bakıda mühəndis evi, həkim evi, yazıçı evi olduğu kimi, müəllim evi də yaradılmalıdır. Belə bir mədəniyyət ocağına ehtiyac çoxdur.

*"Azərbaycan müəllimi" qəzeti, 24 noyabr 1960-cı il,*



---

# "Mir Cəlal Paşayev oğluna aldığı evi mənə verdi"



**Elə insanlar var ki, bəzən təkcə onların ad və soyadını çəkmək belə yetərlidir ki, göz önündə həyat və fəaliyyətləri bütövlüklə canlansın. Azərbaycan ədəbiyyatşünaslığında özünəməxsus yer tutan, xeyirxahlığı ilə onu tanıyanların ürəklərində həmişəlik iz qoymuş, istedadlı yazıçı, gözəl alim Mir Cəlal Paşayev də məhz belə şəxsiyyətlərdən biridir. Tələbələrinin sevimlisi olan görkəmli pedaqoqun keçdiyi ömür yolunu vərəqləmək üçün onu özünə mənəvi ata bilən Azərbaycanın Xalq şairi Nəriman Həsənzadənin qonağı olduq.**



*Xalq şairi, Prezident təqaüdçüsü Nəriman Həsənzadənin Azərbaycan xalqının sevimli yazıçısı, görkəmli pedaqoq, Əməkdar elm xadimi Mir Cəlal Paşayevlə bağlı xatirələri*

## "Mir Cəlal Paşayevi yaxından tanıyan, şanslı aspirantlardan biri idim"

*- Nəriman müəllim, Mir Cəlal Paşayevi yaxından tanımaq, onunla ünsiyyətdə olmaq deyilənə görə o dövrün tələbələri üçün bir şans, böyük xoşbəxtlik imiş. Siz onun aspirantı olmusunuz . Deməli, siz də həmin xoşbəxtlərdən sayıla bilərsiniz. Bir elmi rəhbər kimi aspirantlarına münasibəti necə idi?*

- Qızım, çox düzgün qeyd etdiniz ki, onu tanımaq, ünsiyyətdə olmaq bizim dövrün tələbə və aspirantları üçün böyük xoşbəxtlik idi. Məni elmə yönləndirən də elə Mir Cəlal Paşayev olub...

Mir Cəlal müəllimlə tanışlığım 1954-cü ildən başlayır. Məni Bakıdan sovet ordusunda hərbi xidmətə aparmışdılar. "Salyanski kazarma" deyilən yerdə hərbi hissədəydim. Gəncə Pedaqoji İnstitutunun (keçmiş H.Zərdabi adına Kirovabad Dövlət İnstitutu) filologiya fakültəsini bitirmişdim. Şeirlər yazırdım. Bakıya yenicə gəlmişdim. Şəhərdən bir az aralıda Balaxanı qəsəbəsində dərs deyirdim. İcazə alıb, Yazıçılar İttifaqına "Gənclər günü"nə getmişdim. Təzə şeirlərim var idi, oxumaq istəyirdim. Əsgər paltarımı dəyişməmişdim, eləcə paqonda, şineldə gəlmişdim. Şeirlərimi oxuyandan sonra qabaq cərgədə oturan Mir Cəlal müəllim məni təbrik edib, əlimi sıxdı...

Hərbi xidmətdən sonra Azərbaycan Yazıçılar İttifaqı tərəfindən Moskvadakı ikiillik ədəbiyyat kursuna göndərildim. Buranı bitirdikdən sonra Qorki adına Ədəbiyyat İnstitutuna qəbul olundum. 1961-ci ildə institutu bitirib böyük ümidlərlə Bakıya qayıtdım. İşsiz idim... Bir gün şəhərdə böyük yazıçımız Mir Cəlal müəllimlə rastlaşdım. "Nə axtarırsan?", - deyə bir ata qayğısı ilə soruşdu.

- "İş axtarıram, Mir Cəlal müəllim", - deyə mənə olan bu mərhəm münasibətindən ürəklənib, özümü onun oğlu kimi hiss edərək cavab verdim.

"İş axtarma, adam axtar. Adam da mən". Tam təmənnasız bir cavab verdi.

- Gəl universitetə, aspiranturaya.

Getdim. Mir Cəlal müəllim mənim tale yolumu belə təyin etdi, o yol isə məni ucaltdı...

Mir Cəlal mənim üçün tarixi bir simadır, yaxud tarixdir. Universitetdə Azərbaycan ədəbiyyatı tarixi kafedrasının müdiri idi. Bütün tələbələrinə böyük qayğı ilə, nəvazişlə yanaşardı. Həyat yollarında da tələbələrin yaxın məsləkdaşına çevrilmişdi. Qayğıkeş idi, arxasızlara, köməksizlərə, halal və zəhmətkeş insanlara daim dayaq olardı. Hamı onu çox sevirdi, tələbələri mühazirələrinə olduqca həvəslə gəlirdi. Sadə olduğu qədər də tələbkar idi. Onun qapısı hamının üzünə açıq idi. O, istedadlı tələbələrini öz övladları qədər istəyirdi. Onların qayğısını öz qayğısı bilirdi. Aspirantı olduğum illərdə və ondan sonra da Mir Cəlal mənəvi dayağım olmuş, məni oğlanlarından seçməmişdir. Mənə rəğbəti çox idi...

Bilirsiniz, universitet həyatı mənim gəncliyim, tərcümeyi-halımın bir hissəsidir. Mən orada böyük yazıçı, böyük alim Mir Cəlal Paşayevi gördüm, ömürlük sevdim və o, mənim mənəvi atam oldu. Mir Cəlalın özü mənim üçün ayrıca bir universitet, rəhbərlik etdiyi kafedra isə, deyərdim ki, ayrıca bir "Yazıçılar İttifaqı" idi.

## "Onunla tanışlığım mənim büsbütün həyatımı dəyişdi"

*- Mir Cəlal Paşayevin sizin həyatınızda önəmli yer tutması barədə müəyyən məlumatımız var. Onu da bilirik ki, qeyd etdiyiniz kimi sizi o ailədə oğulları kimi seviblər. Lakin istərdik ki, özünüz bu barədə daha ətraflı danışasınız.*

- Mənim demək olar ki, günüm onların ailəsində keçib. Hərdən onlara utanırdım getməyə. Aradan 1-2 gün keçirdi. Bir də görürdüm Mir Cəlal müəllim mənə zəng edir: "Nəriman, sən Bakıda yaşayırsan, niyə görünmürsən ?". Bax ilk cümləsi bu olurdu.

Mir Cəlal müəllim mənə: "Şairliyini heç vaxt unutma", - deyirdi. Ədəbi yaradıcılığımı yüksək qiymətləndirirdi. Mən onun aspirantı ola-ola Mir Cəlal müəllim özünəxas böyüklük eləyib özüm və şeirlərim haqqında bir neçə məqalə də yazdı. Mir Cəlal olmasaydı mən, bəlkə də, indi Xalq şairi olmazdım. Dediklərimi səmimi qəbul edin. Həyatda əldə etdiklərimin bəlkə də heç biri olmazdı. Onunla tanışlığım mənim büsbütün həyatımı dəyişdi.

Bir yaşımda atamı, 23 yaşımda isə anamı itirmişəm. Mir Cəlal mənə sözün həqiqi mənasında atalıq edib.

Mənim həyatımda silinməz iz buraxmış bir hadisəni danışmaq istərdim. O vaxt Yazıçılar İttifaqı gənc yazarlar üçün yaşayış binası tikmişdi. Ev şəraitim çox acınacaqlı olsa da, buradan mənə mənzil çatmadı... Bir gün adəti üzrə axşam Mir Cəlal müəllimgilə getmişdim. Bu qayğıkeş insan məni də götürüb Püstə xanımla birlikdə Yazıçılar İttifaqının birinci katibi, dostu Mehdi Hüseynin evinə getdik. Sözün düzü, özüm də bilmirəm məni niyə aparırdılar. Mehdi Hüseyn Mir Cəlal müəllimin xətrini çox istəyirdi. Mir Cəlal Mehdi Hüseynə qayıtdı ki, bir xahişə gəlmişəm, Nəriman Həsənzadəni yəqin ki, tanıyırsan. Gənc istedadlı, şairdir. Mehdi müəllim dedi ki, yaxşı tanıyıram. Yazdığı "Nəriman" poemasından verilən parçaları oxuyuram, əsər haqqında yazmaq fikrim də var. Amma qoy bitirsin. Mir Cəlal müəllimə bu söhbət xoş gəldi. Birdən qayıtdı ki, Nərimanın ev şəraiti olduqca acınacaqlıdır. Ona da ev lazımdır. Mehdi Hüseyn: "Nərimana da ev verəcəyik. İndi yox, gələn dəfə. Qoy poemasını yazıb qurtarsın. İndi boş mənzil yoxdur", - söylədi.

Mir Cəlal müəllim birdən: "Arifin (Mir Cəlal müəllimin oğlu ) adını siyahıdan çıxart, Nərimanın adını yaz", - deyə təkid etdi. Mehdi Hüseyn eynəyini düzəldib Mir Cəlalın üzünə baxdı. Mənim mənəvi atam olan Mir Cəlal müəllim: "Mən bu xahiş üçün sənin yanına gəlmişəm, Mehdi", - söylədi. Həmin vaxt əslində Mir Cəlal müəllimin ailəsinə də ev lazım idi. Oğlu Arifi evləndirəcəkdi. Amma Mir Cəlalın və Püstə xanımın alicənablığı, ürəkgenişliyi sayəsində Arif müəllim üçün nəzərdə tutulan ev mənə verildi. Bax, qızım, Mir Cəlal müəllim belə bir ürəyin sahibi idi. Mir Cəlal Paşayev oğluna aldığı evi mənə verdi. Həyat yoldaşı Püstə xanım da əsl bir xanım, xeyirxahlıq mücəssəməsi idi.

Mən onun sayəsində şəhərin Baksovet deyilən bir yerində gözəl bir evə sahib oldum. Yoldaşı ilə bizə qonaq da gəldi...

## "Həyatımda yaratdığım ən böyük əsər - ailəmdir" deyirdi

*- Mir Cəlal Paşayev ailədə necə idi?*

- Mir Cəlal: "Həyatımda yaratdığım ən böyük əsər - ailəmdir" deyirdi. O, sözün həqiqi mənasında, qibtəediləcək qədər gözəl bir ata, nümunəvi bir ailə başçısı olub. Mülayim təbiətli, xoşrəftar, təmkinli, olduqca mədəni və övladcanlı idi. Oğlanları Arifə, Hafizə, Aqilə, qızları Ədibəyə və Elmira xanıma yüksək təhsil və tərbiyə vermişdir. Sonralar kiçik oğlu Aqil dünyasını çox erkən dəyişdi. Övladlarını özü kimi gözütox, ləyaqətli böyütmüşdü. Bütün işlərində övladlarının köməkçisi, onlara sirdaş olurdu. Övladları da həmişə onun başını uca ediblər. Həyatda hər biri böyük nüfuz sahibidirlər. Özümü hər zaman bu ailənin oğlu hesab etmişəm və Mir Cəlal müəllimin, ömürgün yoldaşı Püstə xanımın məni öz övladlarından seçmədiklərini, əksinə hər çətin, eyni zamanda əlamətdar günlərimdə yanımda olduqlarını görmüşəm.

Xoşbəxtlikdən Mir Cəlal müəllimin Püstə xanım kimi könül sirdaşı var idi. Onu tək qoymurdu. Dövlətdən də qoruyurdu, dövlətlidən də. Paxıllardan da, onu istəməyənlərdən də. Püstə xanımın açdığı süfrələrdə çörək kəsən tələbələr, aspirantlar bu ailənin səxavətinə, mənəvi paklığına bələd idilər. Mir Cəlal müəllim hara getsəydi mütləq Püstə xanımı da özü ilə apardı. Sonralar Püstə xanım xatirələrində deyirdi: "Hüseyn Cavidlə Mir Cəlal yaxın idi. Hər dəfə dram teatrında tamaşası gedəndə bizə bilet də göndərərdi. Teatrda onun lojası var idi. Biz ora dəvət olunurduq. Hara getsəydi məni də aparmalıydı...

Mir Cəlal müəllim, həqiqətən peyğəmbər təbiətli insan idi. Xeyirxahlıq onun canında, qanında idi. Mən o ailəyə həmişə ocaq kimi baxmışam. İndinin özündə də.

**Samirə KƏRİMOVA**
*29 yanvar 2016-cı il*

# QƏRBİ AZƏRBAYCAN
## BİZ QAYIDACAĞIQ!

**Qərbi Azərbaycanın, bütövlükdə Cənubi Qafqazın Rusiya tərəfindən işğal edilməsi, çarizmin siyasi-ideoloji maraqlarına uyğun şəkildə həyata keçirilməsini şərtləndirirdi. Buna görə də yerlərdə öz siyasi və iqtisadi nüfuzunu, dayaqlarını daha da genişləndirib möhkəmləndirmək üçün çarizmə sadiq məmurlar hazırlamaq günün ən vacib məsələlərindən idi. Bunu nəzərə alan çarizm Cənubi Qafqazda, o cümlədən İrəvanda da milli müstəmləkə siyasətinin ən vacib tərkib hissəsi olan yeni məktəb sistemini qurmağa başladı. XIX əsrin birinci yarısında Tiflisdə, Bakıda, Şuşada və başqa şəhərlərdə rus məktəbləri açıldığı kimi, 1832-ci ildə İrəvanda da ilk qəza məktəbi açıldı. XIX əsrin 70-ci illərindən başlayaraq dünyəvi təhsil verən məktəblər şəbəkəsi daha da geniş vüsət almağa başladı. 1880-ci ildə İrəvan şəhər ibtidai məktəbi, 1881-ci ildə İrəvan oğlanlar gimnaziyası, İrəvan Müəllimlər Seminariyası, 1898-ci ildə İrəvan rus-tatar məktəbi, 1898-ci ildə İrəvan qızlar gimnaziyası və digər təhsil ocaqları təşkil edilərək fəaliyyət göstərmişdir. Lakin 1918-ci ildə erməni terroru nəticəsində bu təhsil ocaqlarının fəaliyyəti dayandırılmışdır. Bu təhsil ocaqlarında dərs deyən və təhsil alan azərbaycanlı müəllim və şagirdlərin bir qismi qəddarcasına qətlə yetirilmiş, bir qismi isə amansızcasına ölməkdən xilas olmaq üçün Türkiyə, Azərbaycan və digər ölkələrə sığınmağa məcbur olmuşlar. Bunun da nəticəsində hesablamamıza görə İrəvandakı təhsil ocaqlarında oxuyan 1241 nəfər şagird və tələbə təhsilini tamamlaya bilməmiş, 372 nəfər tələbə isə bu təhsil müəssisələrini bitirməsi haqqında şəhadətnamə ala bilməmişdir. Bütün bunlara baxmayaraq, İrəvandakı bu məktəblər xalqımızın maariflənməsində, ziyalıların formalaşmasında, ictimai, ədəbi-mədəni mühitin canlanmasında böyük rol oynamış, Fazil İrəvani, Mirzə Abbas Məhəmmədzadə, Mirzə Cabbar Məmmədzadə, Mirzə Hüseyn Həsənzadə İrəvani, Axund Məhəmmədbağır Qazızadə, Mirzə Ələkbər Elxanov, Axund Əbdülhəsən Qazızadə, Mirzə Məmmədvəli Qəmərlinski, Mirzə Cabbar Əsgərzadə, Mustafa bəy Topçubaşov, Əziz Əliyev, Heydər Hüseynov, Hüseyn Məcnunbəyov, Əhməd Rəcəbli, Tağı Paşayev və digər adlarını qeyd etmədiyimiz onlarla görkəmli alim, ədib, şair, ictimai-siyasi xadimlər yetişdirmişdir.**

# Qərbi Azərbaycanda milli təhsilimizə qarşı
# VANDALİZM AKTLARI

1920-ci il noyabrın 29-da Qərbi Azərbaycanda sovet hakimiyyəti qurulduqdan sonra burada da hökumətin ilk tədbirlərindən biri yeni məktəb sisteminin yaradılması haqqında dekret və sərəncamların verilməsi oldu. Həmin dekret və sərəncamlarda köhnə tipli məktəblərin ləğv edilməsi, xalq təhsilinin yeni inkişafını istiqamətləndirən bir sıra müddəalar öz əksini tapmışdı.

1925-ci illərdə İrəvan nahiyyəsində 45 azərbaycanlı məktəbi fəaliyyət göstərsə də, 1930-cu illərdən sonra İrəvan şəhər maarif şöbəsi tərəfindən yaradılan süni problemlər bu təhsil ocaqlarının əksəriyyətinin bağlanmasına gətirib çıxarmışdır. Həmin dövrdə azərbaycanlı məktəblərində müəllim kadrlarına böyük tələbat olduğu halda, yüzlərlə azərbaycanlı tələbələr “bəy”, “xan”, “mülkədar”, “qolçomaq”, “kulak” və sair adlar damğası vurularaq təhsil müəssisələrindən xaric olunurdular. Təkcə 1928-1935-ci illərdə İrəvan məktəblərindən 641 nəfər azərbaycanlı müəllim, tələbə, şagird bu adlarla repressiyaya məruz qalmışdır. Əlbəttə, bütün bunlar İrəvanda Azərbaycan ictimai, ədəbi-mədəni mühitinin ahəngdar fəaliyyətini iflic edirdi.

1941-1945-ci illərdə İkinci Dünya müharibəsi zamanı Qərbi Azərbaycanda yaşayan soydaşlarımızın əksəriyyətinin cəbhəyə göndərilməsi də böyük itkilərə səbəb olmuşdur. Müharibənin azərbaycanlılara vurduğu zərbənin fəsadlarına baxmayaraq, 1945-ci ilin noyabr ayında SSRİ Xalq Komissarları Sovetinin sədri İosif Stalinin “tarixi” qərarı çıxır. Bunu ermənilər özünəməxsus bir riyakarlıqla Stalinin təşəbbüsü adlandırmışlar. O vaxtlar SSR Nazirlər Soveti sədrinin müavini vəzifəsində çalışan A.İ.Mikoyanın hazırladığı plan əsasında “Ermənistan SSR-dən kolxozçuların və digər azərbaycanlı əhalinin Azərbaycan SSR-in Kür-Araz ovalığına köçürülməsi haqqında” SSRİ Nazirlər Soveti İ.Stalin tərəfindən qəbul edilmiş 1947-ci il 23 dekabr tarixli 4083 saylı və 1948-ci il 10 mart tarixli 754 saylı qərarlar azərbaycanlılara qarşı növbəti tarixi cinayət aktı idi.

“Kür-Araz ovalığı rayonlarını işçi qüvvəsi ilə təmin etmək” bəhanəsi altında İrəvanda yaşayan azərbaycanlılarla bərabər İrəvan Azərbaycanlı Pedaqoji məktəbi və onun 200 nəfər tələbəsi Xanlar rayonuna, İrəvan Pedaqoji İnstitutunun Azərbaycan bölməsi isə Bakıya köçürülüb Azərbaycan Dövlət Pedaqoji İnstitutuna qatıldı. Həmin təhsil müəssisələrində dərs deyən müəllimlər ya Xanlara, ya da Bakıya köçürüldü. Ermənistandakı Azərbaycan dilli tədris müəssisələri ya bağlanır, ya da Azərbaycana köçürülürdü. Həmin dövrdə 174 nəfər tələbənin təhsil aldığı İrəvan Azərbaycanlı Kənd Təsərrüfatı texnikumunun köçürülməsi nəzərdə tutulsa da, lakin sonradan bu təhsil müəssisəsinin köçürülməsi dayandırılmışdır.

Ermənilərin azərbaycanlılara qarşı dövlət səviyyəsində apardığı soyqırım siyasəti, deportasiya aksiyası təkcə Qərbi Azərbaycanda Azərbaycan ictimai-siyasi mühitinə deyil, eyni zamanda ədəbi-mədəni mühitinə də böyük zərbə vurmuşdur. İrəvan Türk Pedaqoji Texnikumunun, İrəvan Dövlət Qiyabi Pedaqoji İnstitutunun və İrəvan Dövlət Pedaqoji İnstitutunun Azərbaycan şöbələrinin Azərbaycana köçürülməsindən bir ay əvvəl Ermənistanın Maarif Naziri Aqbalyan 7 oktyabr 1948-ci il tarixli 719 nömrəli əmr imzalayır. Həmin əmrdə göstərilir: “İrəvanda Azərbayan dilində fəaliyyət göstərən təhsil müəssisələrinin Azərbaycan SSRİ-yə köçməsi ilə əlaqədar olaraq həmin təhsil müəssisələrində işləyən müəllim kontingenti 7 oktyabr 1948-ci ildən işdən azad edilsinlər”.



*İrəvan Dövlət Pedaqoji İnstitutunun binası. 1936-cı il*



*M.F.Axundov adına İrəvan azərbaycanlı tam orta məktəbin binası. 1938-ci il*

Beləliklə, İrəvanda Azərbaycan ictimai-siyasi, ədəbi-mədəni mühitinin aparıcı nümayəndələri olan Mehdi Kazımov, Həbib Məhəmmədzadə, Adil Axundov, Mirəli Seyidov, Fərhad Fərhadov, Rəhim Allahverdiyev, Yusif Kazımov, Bülbül Kazımova, Əşrəf Bayramov, İsmayıl Şükürzadə, Bəhlul Yusifov, Sadiq Heydərzadə, Əsgər Cəfərov, Əyyub Babayev, Kamil Nəzərəliyev, Zaman Vəliyev və başqaları 1948-ci il deportasiyasına məruz qaldılar. Mehdi Kazımov, Əşrəf Bayramov, İsmayıl Şükürzadə, Fərhad Fərhadov, Əyyub Babayev, Səkinə İsmayılova pedaqoji fəaliyyətlərini indiki Azərbaycan Dövlət Pedaqoji Universitetində davam etdirmişdilər.

İrəvan Pedaqoji İnstitutunun Azərbaycan bölməsinin ədəbiyyat, coğrafiya və fizika-riyaziyyat fakültələrində təhsil alan 149 tələbə indiki Azərbaycan Dövlət Pedaqoji Universitetinin (keçmiş Lenin adına Azərbaycan Pedaqoji İnstitutu) müvafiq fakültə və kurslarına yerləşdirilmişdi. Azərbaycan Milli Elmlər Akademiyasının nəzdində olan Eksperimental Tibb İnstitutunun binası boşaldılaraq İrəvan Dövlət Pedaqoji İnstitutunun Azərbaycan bölməsi yerləşdirilmişdir.

İrəvan Qiyabi Pedaqoji İnstitutunun Azərbaycan bölməsi isə Azərbaycan Dövlət Qiyabi Pedaqoji İnstitutuna birləşdirilmişdir. İrəvan Qiyabi Pedaqoji İnstitutunun ədəbiyyat, tarix və fizika-riyaziyyat fakültələrində təhsil alan 257 nəfər qiyabiçi Azərbaycan Dövlət Qiyabi Pedaqoji İnstitutunun müvafiq fakültələrinə qəbul edilmişdir.

İrəvan Dövlət Pedaqoji İnstitutunun Azərbaycan bölməsində dərs deyən müəllim heyətinin Azərbaycanda ali, orta ixtisas və ümumtəhsil məktəblərində işlə təmin edilməsi məsələsi nəzərdə tutulsa da, öz həllini tapmamışdır.

1948-ci ilin noyabr ayında Qərbi Azərbaycandan köçürülmüş İrəvan Azərbaycanlı Pedaqoji məktəbi və onun qiyabi şöbəsində təhsil alan 108 nəfərlik tələbə kontingenti müstəqil təhsil müəssisəsi kimi saxlanılaraq Azərbaycanın Xanlar rayonunun uşaq evinin binasına köçürülmüşdür.

Çətinliklə də olsa müəllimlər mənzillə, tələbələr isə yataqxana ilə təmin edilmişdi. Azərbaycan Respublikasının Nazirlər Sovetinin İrəvan Azərbaycanlı Pedaqoji Məktəbinin köçürülən tələbələrinin hər birinə özlərinə geyim və sair lazım olan əşyaları alması üçün 500 rubl vəsaitin ayrılması üçün qərarı isə icra olunmamışdır.

Azərbaycan SSR Nazirlər Soveti SSRİ Maliyyə Nazirliyindən Qərbi Azərbaycandakı Azərbaycan dilli pedaqoji təhsil müəssisələrinin Azərbaycana köçürülməsi ilə bağlı 1211,7 min rubl məbləğində vəsaitin ayrılmasını xahiş etməsinə baxmayaraq, heç bir vəsait ödənilməmişdir.

Məlumat üçün onu da qeyd edək ki, Qərbi Azərbaycandan köçürülən həmin pedaqoji müəssisələrin nə arxivi, nə də ki, müəllim və tələbə kontingentinin şəxsi işləri köçürülən təhsil müəssisələrinə təhvil verilməmişdir. Aydındır ki, bütün bunlar Qərbi Azərbaycanda milli təhsil irsimizin inkar edilməsi və izlərinin silinməsi məqsədilə edil-mişdir.

Qərbi Azərbaycandan soydaşlarımızın köçürülməsi ilə əlaqədar deportasiya edilənlərin uşaqlarını təhsilə cəlb etmək məqsədilə Salyan rayonunun Şorsulu kənd 7 illik məktəbi 1950-1951-ci tədris ilindən etibarən orta məktəbə çevrilmişdir. Faktlar göstərir ki, Salyan rayonunun Şorsulu kəndinə köçürülən ailələrin uşaqları daha çox VIII-IX siniflərdə oxuyan şagirdlər olub.

Köçürülmə ilə bağlı əldə etdiyimiz materiallarda 1949-1950-ci dərs ilində Qərbi Azərbaycandan köçürülənlər arasında 3638 nəfər məktəb yaşlı uşağın olduğu göstərilir. Azərbaycanda 22 rayonun məktəblərinə onlardan 3276 nəfərin qəbul edildiyi bildirilir. Qalanlar əsasən tədris ili başladıqdan sonra köçürüldüyündən məktəblərə qəbul edilməyib və növbəti tədris ilində məktəblərə qəbul olunmuşlar. Bu faktların heç biri həqiqəti əks etdirmir. Bunu bir neçə faktla izah etmək olar.

Birincisi, 1948-1953-cü illərdə Qərbi Azərbaycanın elliklə köçürülən Göykümbət, Çobankərə, Hacı Elyas (Hacılləz), Muğanlı, Kolanlı, Üşəgən, Hamamlı, Nəzirəvan, Şorkənd, Məngük, Əliqırıx, Qaraxal, Qaragöl, Körpükənd, Arbat, Böyük Kolanlı, Qarğabazar, Baxçalar, Kərimbəyli, İydəli, Novruzlu, Dарğalı, İmanşalı, Torpaqqala, Axund Buzovand, Parpi, İpəkli, Dəlləkli, Xatınarx, Ağşalax, Qabaxlı, Nursun, Qoxt, Molla Dursun, Aşağı Buzovand, Yuxarı Buzovand, Burastan, Çadqıran, Əkərək, Təkiyə, Ərmik, Kirəşli, Kotur, Dayıkənd, Gülüstan, Məsimli, Qulucan, Şurakənd, Şöllü, Xarratlı, Noraşen, Zəfərli, Hortun, Birəli, Qaşqa, Şahablı, Həsənli, Çarbax, Mollalı, Gölcığın, Qədirli, Cəbəçili, Gülüdüz, Sərinsəvəng, Təzəkənd, Qaradağlı, Yenicə, Kələrə (Kələley), Mügnü, Haxış, Üşü, Vələcyar, Zirək, Artız, Quyulu, Qorçulu, Cul, Qaraqoyunlu, Həsənli, Xaraba Kolanlı, Əştərək, Yuva, Qədirli, Əzizkənd, Gölaysor, Gədikvəng, Ayısəsi, Qarxun, Ağcaqışlaq, Kələlə, Şura, Avşar, Goravan, Taytan, Alməmməd, Şıxlar, Ocaxqulu, Çanaxçı, Dərə (Üçmüədzində), Dарğalı, Böyük Şöllü, Aşağı Ağbaş, Dvin, Böyük Gilanlar, Ağ Həmzəli (Axamzalı), Daşlı, Qarğabazar, Yuxarı Kolanlı, Qaraqala, Hors, Oğrubəyli, Təpəbaş kəndi, Əlidərə (Qəmərli), Arpavar, Çabaxlu, Qurdalı, Ağçarx, Qurdalı, Quruqdan, Şuğayıb, Haxıc, Xırda Gilanlar, Sünbül, Çidəmli, Toxanşalı, Dəllər, Gödəkli, Burastan, Zöhrablı, Doqquz, Qaraxaç, Daşlı, Aşağı Novruzlu və digər kəndlərin müəllim və şagirdləri kollektiv şəkildə köçürülmüşdü. İkincisi, 1948-1953-cü illərdə Qərbi Azərbaycandan müəllim və şagird kontingenti ilə birlikdə 111 məktəb tamamilə, 36 beynəlmiləl məktəbin isə Azərbaycan bölməsi köçürülmüşdür. 1948-ci ildə Qərbi Azərbaycanda azərbaycanlı məktəblərinin sayı 257, həmin məktəblərdə oxuyan şagirdlərin sayı 27684 nəfər, bu təhsil müəssisələrində dərs deyən müəllimlərin sayı isə 1658 nəfər olmuşdur. 1948-ci ildə Qərbi Azərbaycanda fəaliyyət göstərən azərbaycanlı məktəbinin sayı 1953-cü ildə 257-dən 146-ya, həmin məktəblərdə təhsil alan şagirdlərin sayı 27684-dən 21146 nəfərə, müəllimlərin sayı isə 1658 nəfərdən 984 nəfərədək azalmışdı. Bu statistik rəqəmlər təsdiq edir ki, 1948-1953-cü illərdə Qərbi Azərbaycandan 111 azərbaycanlı məktəbi, 6538 şagird, 674 nəfər müəllim köçürülmüşdür. Bu statistik rəqəmlər eyni zamanda həm Qərbi Azərbaycandan köçürülən ailələrin müəyyən qədər say tərkibinə, həm də onların arasında məktəbyaşlı və məktəbli uşaqların sayının müəyyənləşməsinə aydınlıq gətirir.

Köçürülənlərin ən çox yerləşdiyi rayonlarda əlavə siniflərin açılmasına böyük ehtiyac yaranmışdır. Belə ki, Saatlı rayonunda əlavə olaraq üç I-IV sinif, üç V-VII sinif, Şirvan (Əli Bayramlı) rayonunda doqquz I-IV sinif, bir V sinif, iki VIII-IX sinif, Zərdab rayonunda dörd I-IV siniflər açılmışdır.

Ağdaş rayonuna köçürülmüş ailələrin məktəbyaşlı uşaqlarının təhsilini tamamilə əhatə etmək üçün rayonun Xosrov, Şəmsabad, Tofiqli, Aral - 1, Ağcazi 7 illik məktəblərində 8 əlavə sinif açılmış və Mirmahmud, Aral - 2 kəndlərində 3 sinifli 2 ibtidai məktəb təşkil edilmişdir. Rayonun Xosrov 7 illik məktəbində yeni köçürülmüş əhalinin məktəbyaşlı uşaqlarının təhsilini davam etdirmək üçün isə əlavə 1-ci sinif açılmışdır. Araşdırmalardan aydın olur ki, köçürülmüş əhalinin, o cümlədən uşaqların sağlamlıq durumu çox acınacaqlı olmuşdur. Hətta köçürülənlərin sağlamlıq vəziyyəti o qədər ciddi xarakter almışdır ki, Azərbaycan Səhiyyə Nazirliyi vəziyyəti nəzarət altına götürmüşdür.

Qərbi Azərbaycandan şagirdlərin köçürülməsi nəticəsində siniflərin genişləndirilməsi ilə yanaşı, Azərbaycan Maarif Nazirliyi Salyan rayonundakı bir ibtidai məktəbin yeddiillik, Azərbaycan Nazirlər Sovetinin qərarı ilə isə Şirvan (Əli Bayramlı) rayonundakı bir yeddiillik məktəbin orta məktəbə çevrilməsinə icazə vermişdir. Zərdab rayonunda isə əlavə beşinci sinif açılmış, ibtidai məktəb 220 nəfər şagirdi əhatə edən yeddiillik məktəbə çevrilmişdir.

Qərbi Azərbaycandan köçürülən 272 müəllimdən 244-ü məktəblərə, qalanları isə kitabxanalara, uşaq bağçalarına və digər yerlərə işləməyə göndərilmişdir.

Köçürülən ailələrin içərisində 838 bağça yaşlı uşaqlar idi. Uşaqların 90 gün müddətinə sağlamlığını təmin etmək üçün 991 min rubl vəsaitə ehtiyac yaransa da, bu tələb də ödənilməmişdir. 75 gün müddətinə isə 715 məktəbəqədər uşaq üçün 818.675 rubl təhsil almasına tələb olunurdu. Təəssüflər olsun ki, bu tələblərin heç biri yerinə yetirilməmişdir.

3010 məktəblinin 40 gün müddətində pioner düşərgələrində istirahəti nəzərdə tutulmuşdu ki, bunun üçün 2341780 rubl təhsil vəsaitinin ayrılması tələb olunurdu. Bu tədbirlərin həyata keçirilməsi üçün isə Mərkəzin Azərbaycan Respublikasının Maliyyə Nazirliyinə göstəriş verməsi vacib idi. Faktlar göstərir ki, bunların heç biri həyata keçirilməmişdir.

Məlum olduğu kimi, Qərbi Azərbaycandan əhalinin köçürülməsi SSRİ hökumətinin, mərkəzin qərarlarına uyğun olaraq həyata keçirilirdi.

Faktlar göstərir ki, Ermənistan SSR Maarif Nazirliyi hökumətin köçürmə ilə bağlı həyata keçirdiyi irimiqyaslı tədbirlərə baxmayaraq, Azərbaycana köçürülmüş müəllimləri sonradan məcburiyyət qarşısında qalaraq Qərbi Azərbaycana geri çağırmışdır. Məlumatlara görə geri çağırılan müəllimlərə və onların ailə üzvlərinə Ermənistan SSR Maarif Nazirliyi tərəfindən köçürülmə müavinəti və ezamiyyət xərcləri verilməmişdir.

1948-1953-cü illər köçürülməsindən sonra Qərbi Azərbaycanda milli məktəblərimizin müəllim və şagird kontingentinin sayı kəskin şəkildə azalmışdır. Milli məktəblərimizdə isə müəllim çatışmazlığı böhranı yaşanırdı. Bu vəziyyətin dözülməz xarakter altdığını görən köçürmə komissiyasının sədri N.Allahverdiyev 8 mart 1952-ci ildə 267 nömrəli tam məxfi qrifli məktubla Azərbaycan SSR Nazirlər Sovetinin sədr müavini M.F.Əmiraslanova və Ermənistan SSR Nazirlər Sovetinin sədr müavini A.E.Çorçoqlyana, hər iki respublikanın Maarif Nazirliyinə və SSRİ Baş Köçürmə İdarəsinin rəisi S.D.Çerenışkinə Qərbi Azərbaycandan köçürülmüş 75-dən artıq müəllimin geri qaytarılması ilə bağlı müraciət edir. Bu müraciət əsasən Qərbi Azərbaycandan köçürülmüş bir neçə müəllimi, eyni zamanda Azərbaycanın rayonlarındakı pedaqoji təhsil müəssisələrindən 10 nəfər müəllimi Ermənistan SSR Maarif Nazirliyinin sərəncamına göndərirlər. Ermənistan SSR Nazirlər Sovetinin sədr müavini A.Çarçoqlyan N.Allahverdiyevin həmin məktubuna 19 aprel 1952-ci il tarixli 269 №-li tam məxfi qrifli cavab məktubunda yazır ki, “Ermənistana göndərilən müəllimlərin namizədliklərini yoxlayasınız və Ermənistan SSR-dən köçkünlər sırasından şəxslərin göndərilməsinə yol verməyəsiniz”.

Çünki azərbaycanlı köçkün pedaqoqların geri qayıdacağı təqdirdə milli maariçiliyin özünəməxsusluğunun yenidən parlaması erməni şovinist dairələrinin məkrli məqsədlərinə uyğun deyildi. Ona görə də Azərbaycana köçürülmüş azərbaycanlı müəllimlərin geri qayıtmasını müxtəlif bəhanələrlə əngəlləyirdilər. Faktlar göstərir ki, Qərbi Azərbaycandan köçürülmüş 674 nəfər müəllimdən yalnız 7 nəfəri geri qayıda bilmişdir.

1948-1953-cü illərdə azərbaycanlı əhalinin deportasiya edilməsi nəticəsində soydaşlarımıza məxsus olan bir sıra mədəni-maarif ocaqları, İrəvanda fəaliyyət göstərən Azərbaycanlı qadınlar klubu, İrəvan Azərbaycan teatrı, Ermənistan Şura Yazıçılar Cəmiyyətinin Türk Yazarlar bölməsi və bir sıra ümumtəhsil məktəblərinin də fəaliyyəti dayandırıldı. II Dünya Müharibəsindən sonra azərbaycanlıların öz doğma torpaqlarından kütləvi deportasiyası ermənilərin xalqımıza qarşı həyata keçirdiyi siyasi aksiyanın ən müdhiş nəticəsi idi.

1922-ci ildə Qərbi Azərbaycanda 36 azərbaycanlı məktəbində 1521 şagird, 1923-cü ildə 54 azərbaycanlı məktəbində 2584, 1924-cü ildə 93 azərbaycanlı məktəbində 3780 şagird təhsil almışdır. 1925-ci ildə isə azərbaycanlı məktəblərinin sayı 107-yə çatmışdır. 1931-ci ildə 245 azərbaycanlı məktəbində 4133 şagird təhsil almışdı. 1947-ci ildə Qərbi Azərbaycanda 255 azərbaycanlı məktəbi və bu məktəblərdə 26000 şagird, 1960-cı ildə 157 azərbaycanlı məktəbində 18500 azərbaycanlı təhsil alırdı. Eyni zamanda 1960-cı ildə 62 beynəlmiləl məktəbində digər millətlərin nümayəndələri ilə yanaşı azərbaycanlı gənclər də oxuyurdu. 1967-ci ildə azərbaycanlı məktəblərində 33962 şagird, 2171 müəllim, 1977-ci ildə 201 azərbaycanlı məktəbində 41599 şagird, 2722 müəllim olmuşdur. Onlardan 2313 nəfəri ali təhsilli, 409 nəfəri isə natamam ali təhsilli olmuşdur. Azərbaycanlı məktəblərində dərs deyənlərdən 5 nəfəri elmlər namizədi idi. 1980-ci ildə Qərbi Azərbaycandakı azərbaycanlı məktəblərində 50 min şagird təhsil almışdır. Həmin məktəblərdə 4297 nəfər azərbaycanlı müəllim çalışmışdır ki, onlardan da 2964 nəfəri ali təhsilli idi. 1983-cü ildə 193 azərbaycanlı məktəbində 43812 şagird olmuş, 3992 müəllim dərs demişdir ki, onlardan da 3249 nəfəri ali təhsilli idi. 1988-ci ildə isə 149 azərbaycanlı ümumtəhsil məktəbində 25862 şagird oxuyurdu ki, onların da təlim-tərbiyəsi ilə 4246 müəllim məşğul olmuşdu. Onlardan 8 nəfəri elmlər namizədi, 150 nəfəri isə ad almış təcrübəli pedaqoqlar idi. Bir müqayisəni də diqqətə çatdıraq ki, Qərbi Azərbaycanda erməni məktəblərində, daha doğrusu, respublika üzrə müəllimlərin 81 faizi ali təhsilli olduğu halda, azərbaycanlı müəllimlərin 84,5 faizi ali təhsilli idi. Acı təəssüf hissi ilə bildirək ki, Qərbi Azərbaycanda milli maarifimizin təəssübkeşləri olan bu müəllimlərin əksəriyyəti Azərbaycanda pedaqoji fəaliyyətlərini davam etdirə bilmədilər.

**1989**-cu ildə ermənilər tərəfindən azərbaycanlıların öz doğma, tarixi torpaqlarından zor gücünə, vəhşicəsinə köçürüldükdən sonra həmin məktəblərin fəaliyyəti də dayandırıldı. Azərbaycan dilində 59 adda olan 200 mindən artıq dərslik və kitablar məhv edilərək yandırılmışdı. Bu statistikalar bir daha Qərbi Azərbaycanda yaşayan soydaşlarımıza qarşı həyata keçirilən sosial-mənəvi terrorun ən bariz təsdiqidir. Amma bütün bunlara baxmayaraq, biz əminik ki, yenə də öz tarixi və əzəli yurd yerlərimizə qayıdıb, vaxtilə o fədakar maarifçilərimizin, müəllimlərimizin Qərbi Azərbaycanda milli maarifimizin inkişafı yolunda yandırdığı o maarif şöləsini yenidən alovlandıracağıq.



**Cəlal ALLAHVERDİYEV,**
*filologiya üzrə fəlsəfə doktoru, dosent*

# Gdansk Universitetinin azərbaycanlı müəllimi

## Vəli Səməndərli:

## "Müəllimlik etmək qərarım bilik paylaşmağı və insanlara öyrətməyi sevməyimdəndir"



**Azərbaycan gəncləri son illərdə yalnız ölkə daxilində deyil, beynəlxalq müstəvidə də öz bilik və bacarıqları ilə tanınırlar. Bu gün müxtəlif ölkələrdə təhsil alan, çalışan və öz sahəsində sözünü deyən gənclərimiz təkcə fərdi karyera qurmaqla kifayətlənmir, eyni zamanda ölkəmizin intellektual potensialını da təmsil edirlər. Onlar yeni təhsil modellərini mənimsəyir, fərqli mədəniyyətlərlə inteqrasiya olunur, innovativ düşüncə tərzi formalaşdırmaqla yanaşı, eyni zamanda qazandıqları təcrübəni gələcəkdə vətənlərinə fayda vermək üçün dəyərləndirməyə çalışırlar. Xarici ölkələrdə əldə edilən uğurlar təkcə şəxsi nailiyyət deyil, eyni zamanda Azərbaycan gəncinin potensialının, intellektual səviyyəsinin və rəqabət qabiliyyətinin göstəricisidir.**

Həmin gənclər həm də bir növ körpü rolunu oynayırlar. Azərbaycanla dünya arasında bilik, təcrübə və mədəniyyət mübadiləsini təmin edirlər. Onların qazandıqları nailiyyətlər digər gənclər üçün motivasiya mənbəyinə çevrilir, "mümkündür" anlayışını daha real edir. Çünki hər bir uğur hekayəsi göstərir ki, düzgün istiqamət, məqsəd və əzm olduqda, coğrafiya artıq maneə deyil.

Məhz belə gənclərdən biri uzun illərdir Polşada yaşayan, bu ölkənin Gdansk Universitetində dərs deyən, dünyanın ən böyük banklarından olan "CITI" bankda çalışan Vəli Səməndərlidir. Vəli müəllimlə müsahibəmizdə onun təhsil yolundan başlayaraq xaricdə qazandığı uğurlara, qarşılaşdığı çətinliklərə, peşəkar fəaliyyətinə və müəllimlik təcrübəsinə qədər bir çox məqamlara toxunduq.

*- Vəli müəllim, xaricdə fəaliyyət göstərən ən uğurlu azərbaycanlı gənclərdənsiniz. Sizi yaxından tanımaq istərdik.*

-2000-ci ildə Bakıda anadan olmuşam. Orta təhsilimi paytaxtdakı 62 nömrəli məktəb-liseydə almışam. Məktəbin əlaçı şagirdlərindən biri olmaqla bərabər bir çox tədbirlərin fəal iştirakçısı da olmuşam. Orta ümumtəhsil müəssisəsini fərqlənmə attestatı ilə bitirmişəm. Ali təhsilimi Azərbaycan Dövlət İqtisad Universitetində (UNEC) almışam.

Niyə məhz seçimim UNEC oldu? Onu deyim ki, daha öncədən universitet seçimi zamanı əsas prioritetim dünya təhsil trendlərini izləyən, tələbələrinin inkişafına önəm verən və təbii ki, güclü təhsil verən bir ali məktəbdə oxumaq idi. Bu meyarları özündə cəmləşdirən Azərbaycan Dövlət İqtisad Universiteti diqqətimi çəkdi. Mənim üçün əsas hədəf olan "Mühasibat uçotu və audit" ixtisasının tədris proqramı ilə tanış olduqdan sonra fikrim qətiləşdi. UNEC-də SABAH qruplarında təhsil almış məzun olaraq deyə bilərəm ki, bu seçimimdən çox məmnunam.

### Müasir əmək bazarı praktiki bacarıqlar, çeviklik və təşəbbüskarlıq tələb edir

*- Universitet illərində sizi digər tələbələrdən fərqləndirən əsas xüsusiyyətlər nələr idi? SABAH qruplarında təhsil almaq sizə nə qazandırdı?*

- Hesab etmirəm ki, tələbə yoldaşlarımdan nə iləsə fərlənmişəm. Bilirsiniz hər kəsin fərqli bacarığı, yanaşma tərzi olur. Tələbəlik illəri insan həyatının unudulmaz və gələcək üçün ən qızıl dövrüdür. Mən bunu tələbəlik dövründə dərk edirdim. Ona görə də hər zaman öz üzərimdə işlədim. Düşünürdüm ki, universitetə daxil olmuşamsa, ailədən belə maddi dəstək ummamalıyam. Təbii ki, bu proses asan olmur, amma insanı formalaşdırır, çalışqan, ayıq olmağı, hadisələrə çevik münasibət göstərməyi, proseslərdən kənarda qalmamağı öyrədir.Universitet illərində keçirilən bütün tədbirlərdə, görüşlərdə hər zaman fəallığım ilə seçilirdim. SABAH qruplarında təhsil almaq üçün müraciət etdim və test mərhələsində imtahan nəticəsinə əsasən Azərbaycanda ən yüksək bal toplayan tələbə oldum.

SABAH qruplarında təhsil aldığım müddətdə müxtəlif qurumlarda ixtisasım üzrə daha fərqli şəkildə fəaliyyət göstərmişəm. Praqa şəhərində Beynəlxalq Təkmilləşdirmə İnstitutunda ("Prague Institute for Qualification Enhancement) təlimdə iştirak etmişəm. Daha sonra "ACCA - Financial accounting" (maliyyə uçotu) sertifikasiya imtahanını uğurla keçərək sertifikat almışam. Tələbə ikən həmmüəllifi olduğum "Təcavüzkar siyasətin Ermənistan iqtisadiyyatına təsiri (İmpact of agressive policy to the economy of Armenia)" mövzusunda məqalə ölkəmizdə və xaricdə maraqla qarşılanmışdı. Onu da deyim ki, məqaləmiz bir neçə dəfə onlarla xarici ölkə universitetlərinin müəllimləri tərəfindən müzakirəyə çıxarıldı.

Ümumiyyətlə, SABAH qruplarında təhsil almağım mənim həyatımda xüsusi rolu var. Fikrimcə, bu, Azərbaycanın ali təhsil sistemində son illərdə fərqləndirici, ən uğurlu layihələrdən biri kimi gənclərin həm akademik, həm də şəxsi inkişafında mühüm əhəmiyyətə malikdir. SABAH qruplarında təhsil alan tələbələr ənənəvi yanaşmadan fərqli olaraq daha interaktiv dərs mühitinə daxil olurlar. Burada tələbələrdən yalnız nəzəri bilikləri mənimsəmək deyil, eyni zamanda analitik düşünmək, araşdırma aparmaq, təqdimat bacarıqlarını inkişaf etdirmək və komanda şəklində işləmək tələb olunur. Və bu layihənin əsas üstünlüklərindən biri də tələbələrə erkən mərhələdə rəqabət mühitini hiss etdirməsidir.







Nəticə etibarilə, SABAH qrupları yalnız universitet illərini fərqli və daha məhsuldar etmək üçün deyil, gənclərin gələcək həyatına, karyera seçimlərinə, düşüncə tərzinə və hətta həyat prioritetlərinə təsir edən bir platforma rolunu oynayır.

*- Polşada magistratura təhsili almaq istəyiniz necə yarandı? Bu ölkənin təhsillə bağlı hansı xüsusiyyətləri sizi cəlb etmişdi?*

- UNEC-də təhsil aldığım illərdə şəxsi inkişaf və karyera planlamamda xaricdə təhsilin mənim üçün çox önəmli olduğunu anladım. Baxmayaraq ki, magistraturaya müxtəlif ölkələrdən qəbul almışdım, amma seçimim Polşa Respublikasındakı Gdansk Universiteti oldu. Yeni bacarıq və qabiliyyətlərə, təcrübələrə, təhsil metodlarına yiyələnəcəyim bir ölkə olaraq Polşaya fokuslandım. Müraciətim zamanı Polşa tərəfindən verilən "NAWA" təqaüdünün qalibi oldum və orada təhsil, yaşam xərclərim adıçəkilən ölkə tərəfindən ödənildi.

Magistratura illərində mən daha çox peşəkar inkişafıma fokuslanmışdım və paralel olaraq beynəlxalq bank sektorunda fəaliyyət göstərirdim. Bu dövrdə əvvəlcə dələduzluqla mübarizə üzrə analitik (Fraud Analyst) kimi çalışmış, daha sonra isə "Çirkli pulların yuyulması və terrorizmin maliyyələşməsiylə mübarizə" (AML/CTF) sahəsi üzrə ixtisaslaşdım.

Bilirsiniz, müasir əmək bazarı artıq yalnız diplom deyil, eyni zamanda praktiki bacarıqlar, çeviklik və təşəbbüskarlıq tələb edir. İş təcrübəm mənə maliyyə təhlükəsizliyi, risklərin qiymətləndirilməsi və şübhəli əməliyyatların analizi sahəsində dərin biliklər qazandırdı. Bu praktiki yanaşma akademik biliklərimi də tamamlayaraq mənə daha geniş perspektiv verdi. Hazırda da eyni sahədə dünyanın ən böyük banklarından birində fəaliyyət göstərirəm və özümü inkişaf etdirməyə çalışıram.

### "Dərs dediyim əcnəbi tələbələrin inkişafına təsir etdiyimi görürəm"

*- Siz Gdansk Universitetində müəllimliklə də məşğul olursunuz. Gənc yaşda ali məktəb müəllimi kimi çalışmaq necə hissdir?*

- Gdansk Universitetində "Davamlı inkişaf, innovasiyalar, menecment" ixtisası üzrə dərs deyirəm. Eyni zamanda adıçəkilən universitetdə doktorantura təhsili alıram və elmi fəaliyyətim də bu istiqamətdədir. Növbəti tədris ilindən isə "Maliyyə cinayətləri, maliyyə cinayətləri ilə mübarizədə dünya standartları" sahəsini tədris edəcəyəm. Polşada danışıq dili polyak dili olsa da, əsas tədris dili ingiliscədir. Mən adətən ingilisdilli quruplarda dərs keçirəm.

Təbii ki, gənc yaşda müəllim kimi fəaliyyətə başlamaq həm məsuliyyətli, həm də çox ilhamverici bir hissdir. Bilirsiniz, müəllimlik birbaşa insanın ikişafında, gələcək həyatının müəyyənləşdirilməsində mühüm rol oynayır. Mən də dərs dediyim əcnəbi tələbələrin inkişafına təsir etdiyimi görürəm. Müəllimlik etmək qərarım bilik paylaşmağı və insanlara öyrətməyi sevməyimdəndir. Xüsusilə tələbənin irəliləyişini, oxumaq sevgisini görmək mənə çox böyük motivasiya verir. Bu qərarı verərkən müəyyən tərəddüdlərim olsa da, sonda məhz müəllim olmağı seçdim. Müəllimlik böyük səbir və zəhmət tələb edən bir peşədir və tələbələrimin uğurlarını gördükcə seçimimdə yanılmadığımı düşünürəm.

*- Polşada ali təhsil sistemi və tələbə yanaşması haqqında nə deyə bilərsiniz?*

- Polşada ali təhsil sistemi kifayət qədər müasir və Avropa standartlarına uyğun şəkildə qurulub. Universitetlərdə nəzəri biliklərdən daha çox praktik bacarıqların inkişafına ciddi önəm verilir. Tələbələrə müstəqil düşünmək, araşdırma aparmaq və öz fikirlərini sərbəst ifadə etmək imkanları yaradılır. Müəllim-tələbə münasibətləri qarşılıqlı hörmət üzərində qurulub. Eyni zamanda, tələbələrdən məsuliyyətli və aktiv olmaq gözlənilir, çünki qiymətləndirmə yalnız imtahanla deyil, semestr ərzindəki fəaliyyətlə də bağlı olur.

### "Azərbaycanlı tələbələrin potensialını daha yüksək qiymətləndirirəm"

*- Azərbaycanlı və polşalı tələbələr arasında hansı fərqləri görürsünüz?*

- Mən də Azərbaycanda tələbə olmuşam. Müəyyən fərqlər təbii ki, hiss olunur və bu da əsasən təhsil mühitindən qaynaqlanır. Polşalı tələbələr adətən daha sərbəst davranırlar, dərsdə fikirlərini açıq deməkdən çəkinmirlər və müəllimlə rahat ünsiyyət qururlar. Azərbaycanlı tələbələr çox çalışqan və məsuliyyətlidirlər. Bizim gənclərdə bəzən səhv etməkdən çəkinmək hissi daha güclü olur, ona görə də dərsdə aktivlik bir az aşağı görünə bilər. Polşada isə səhv etmək öyrənmənin bir hissəsi kimi qəbul olunur və bu, tələbələri daha rahat edir. Amma ümumilikdə hər iki ölkənin gəncləri istedadlı və öyrənməyə həvəslidir, sadəcə yanaşma fərqlidir. Mən azərbaycanlı tələbələrin potensialını daha yüksək qiymətləndirirəm.

*- Polşada yaşayan azərbaycanlı gənclərin sosial həyatı necədir?*

- Orada yaşayan gənclərimiz kifayət qədər fəaldırlar. Gənclər tez-tez bir araya gəlirlər, milli bayramlarımızı qeyd edirlər, həm də yerli mühitə uyğunlaşmağa çalışırlar. Bir çoxu universitet tədbirlərində, müxtəlif layihələrdə və könüllü fəaliyyətlərdə aktiv iştirak edir. Eyni zamanda, yeni dostlar qazanmaq və fərqli mədəniyyətləri tanımaq üçün açıq olurlar.

### "Uğur bir anda yox, zamanla gəlir"

*- Xaricdə təhsil almaq istəyən gənclərə nələri tövsiyə edərdiniz?*

-Xaricdə təhsil almaq istəyən gənclər, ilk növbədə, məqsədlərini dəqiq müəyyən etməlidirlər. Yeni mühit, fərqli qaydalar, dil baryeri, sosial uyğunlaşma - bütün bunlar ilk baxışda çətin görünə bilər. Lakin məhz bu çətinliklər insanı formalaşdırır, onu daha güclü, müstəqil və məqsədyönlü edir. Sadəcə ölkədən çıxmaq, bir xarici ölkə seçmək üçün yox, həqiqətən nə öyrənmək istədiklərini və gələcək planlarını düşünmək vacibdir. Dil biliklərini gücləndirmək çox önəmlidir, çünki bu, həm dərslərdə, həm də gündəlik həyatda insana böyük üstünlük verir. Eyni zamanda, ilk vaxtlar çətinliklərin olacağını qəbul edib psixoloji olaraq hazır olmaq lazımdır. Yeni mühitə açıq olmaq, fərqli insanlarla ünsiyyət qurmaq və öz komfort zonasından çıxmaq inkişaf üçün çox faydalıdır. Ən əsası isə səbirli və davamlı olmaqdır, çünki uğur bir anda yox, zamanla gəlir.

**Samirə KƏRİMOVA**

# Tədrisdə yeni imkanlar:

## "Google" alətləri artıq "Rəqəmsal məktəb"də




**Təhsil sistemində süni intellekt həllərinin tətbiqi davam etdirilir. Elm və Təhsil Nazirliyi ilə "Google" şirkəti arasında qurulan əməkdaşlıq çərçivəsində "Rəqəmsal məktəb" platformasında müəllimlər üçün yeni imkanlar yaradılıb.**

**Artıq "Rəqəmsal məktəb"də qeydiyyatdan keçmiş müəllimlər "Google"un geniş alətlər toplusuna, o cümlədən süni intellekt əsaslı həllərə ödənişsiz çıxış əldə edirlər. Yaradılmış imkanlar müəllimlərin gündəlik işini daha səmərəli təşkil etməyə və tədris prosesini zənginləşdirməyə kömək edir.**

### Süni intellekt alətləri: "Gemini" və "NotebookLM"

İnteqrasiya olunan alətlər arasında xüsusi yer tutan "Gemini" və "NotebookLM" müəllimlər üçün praktik və gündəlik istifadə yönümlü imkanlar təqdim edir:

• "Gemini" dərs planlarının hazırlanmasında, mövzuların izahında və qiymətləndirmə tapşırıqlarının yaradılmasında müəllimlərə dəstək olaraq dərsə hazırlıq prosesini sürətləndirir və məzmunun daha strukturlaşdırılmış şəkildə təqdim edilməsinə kömək edir.

• "NotebookLM" müəllimlərin öz materialları əsasında işləməsinə imkan verərək yüklənmiş sənədlər üzrə xülasələrin hazırlanması, əsas məqamların müəyyənləşdirilməsi və sualların yaradılması kimi funksiyalar vasitəsilə materiallarla işi daha effektiv edir.

• Bununla yanaşı, müəllimlər üçün "Google Classroom", "Docs", "Slides", "Sheets", "Forms", "Drive", "Meet", "Chat", "Calendar" və "Keep" kimi digər "Google" alətləri təqdim olunur və bu alətlər dərs idarəetməsi, məzmunun hazırlanması, ünsiyyət və əməkdaşlıq proseslərini vahid rəqəmsal mühitdə daha səmərəli təşkil etməyə imkan verir.

Təqdim olunan alətlər dərs planlaşdırmanın daha çevik təşkilinə imkan yaradır, tədris materiallarının hazırlanması və paylaşılması prosesini sadələşdirir. Eyni zamanda qiymətləndirmə daha sistemli şəkildə həyata keçirilir, fərdiləşdirilmiş yanaşmalar üçün imkanlar genişlənir və nəticədə müəllimlərin vaxtına əhəmiyyətli dərəcədə qənaət olunur.



Mançester Universitetinə qəbul olan Şəmkir məktəblisi

# “Yerli sənayenin inkişafına töhfə vermək istəyirəm”

**Şəmkir şəhər Kimya və biologiya təmayüllü liseyin 11-ci sinif şagirdi Hüseyn Quliyev dünyanın ən nüfuzlu ali təhsil müəssisələrindən biri hesab olunan və qlobal universitetlər reytinqində ilk 35-likdə yer alan Mançester Universitetinin “Kompüter elmləri” ixtisasına qəbul olub.**

Hüseyn Quliyev Respublika Fənn Olimpiadasının bürünc medalçısıdır. SAF 2023-də (Elm və Mühəndislik Sərgisi) gümüş medal qazanıb və VEX Robototexnika Respublika turnirində “Enerji mükafatı”na layiq görülüb.

Hüseyn seçdiyi universitet barədə fikirlərini bölüşüb: “Mançester Universitetini seçməyimin əsas səbəbi kompüter elmləri sahəsində güclü akademik bazaya malik olmasıdır. Bundan əlavə, universitetin çox keyfiyyətli tədris proqramları, geniş ixtisas seçimləri və tələbələr üçün güclü akademik və praktiki imkanlar təqdim etməsidir”.

Gəncin əsas məqsədlərindən biri Azərbaycanı beynəlxalq mühitdə layiqincə təmsil etmək, təhsilini tamamladıqdan sonra ölkənin aparıcı şirkətlərində çalışaraq yerli sənayenin inkişafına töhfə verməkdir:

"Gələcəkdə özümü texnologiya sahəsində, xüsusilə böyük layihələr və innovativ həllər üzərində çalışan bir mütəxəssis kimi görürəm. 8-ci sinifdən informatika ilə məşğul oluram və bu sahə artıq mənim əsas maraq və inkişaf istiqamətimə çevrilib. Xüsusilə alqoritmlər, proqramlaşdırma və kibertəhlükəsizlik sahələrinə böyük marağım var".

Hüseyn qəbul prosesinə hazırlaşmağından da danışır: “SAT və IELTS üçün əsasən onlayn resurslardan - praktik testlər, yutub videoları və müxtəlif platformalardan istifadə etmişəm. Bundan əlavə, artıq bu imtahanları vermiş şagirdlərlə danışıb onların təcrübəsindən və məsləhətlərindən faydalanmışam. Bu, mənə həm də səhvlərimi anlamaqda çox kömək etdi”.

Heç bir hazırlıq kursunun dəstəyi olmadan hazırlaşmağın mümkünlüyü barədə danışaraq qeyd edir:

“Onlayn resurslar mənə bu prosesdə çox kömək oldu. Əlbəttə, əvvəlcə bir az çətin idi, amma zamanla özüm üçün uyğun sistem qurdum. Öz üzərində işləmək və düzgün materialları tapmaq burada əsas rol oynadı”.

Uğurun əsas amillərinə toxunan gənc deyir: “Məncə, qəbul üçün ən vacib meyar yaxşı nəticələrdir. Yəni imtahanlardan yüksək bal toplamaq əsas faktorlardan biridir".

Xaricdə təhsil almaq istəyənlərə isə Hüseyn belə tövsiyə edir:

“Erkən başlasınlar və planlı şəkildə irəliləsinlər. Hər şeyi son ana saxlamamaq çox vacibdir. Eyni zamanda prosesi düzgün qurub ona uyğun irəliləsinlər, özlərinə güvənsinlər və yarıda dayandırmasınlar”.

Boş vaxtlarını necə dəyərləndirdiyini də bölüşən Hüseyn bildirir: “Boş vaxtlarımda dərsdən əlavə könüllü fəaliyyətlərlə, robototexnika yarışları ilə məşğul olmuşam. Bu fəaliyyətlər mənə yeni təcrübələr qazandırıb, qəbulda çox kömək edib”.

**Firuzə CÜMŞÜD,**
**Gəncə-Daşkəsən və Qazax-Tovuz üzrə regional təmsilçi**


## “AZƏRBAYCAN MÜƏLLİMİ”

**Qəzet 1934-cü ildən çıxır**

**Baş redaktor**
Sarvan İbrahimov

**Reklam və elanlar:** 539-20-77; elan@media.edu.az

**Ünvan:** AZ-1052, Bakı şəhəri, Nərimanov rayonu, Fətəli xan Xoyski, 109

Qəzet “Azərbaycan müəllimi”nin kompüter mərkəzində yığılır və “Azərbaycan nəşriyyatı” MMC-də çap olunur

Qəzet hər həftənin şənbə günü çıxır

**Bank hesabımız**
Azərbaycan Beynəlxalq Bankı Şərifzadə filialı
Kodu: 805142 VÖEN: 9900001881
M/h: AZ 03 NABZ 01350100000000002944
S.W.I.F.T.: IBAZAZ 2X

“Azərbaycan müəllimi” qəzeti redaksiyası
Hesab № AZ80 IBAZ38060019443164986350
VÖEN: 1300397831

**Lisenziya:** № 022327 **İndeks:** 0003
**Tiraj:** 25757 **Sifariş:** 534
**Məsul növbətçi:** S.Kərimova


**Azərbaycan Respublikası**
**Elm və Təhsil Nazirliyi**

## Azərbaycan Dövlət Mədəniyyət və İncəsənət Universiteti

**aşağıda adıçəkilən kafedrada vakant vəzifələri tutmaq üçün müsabiqə**

## ELAN EDİR:

*Sosial-siyasi elmlər - Professor 0,5 ştat vahidi -1 yer*

Müsabiqədə kafedranın profilinə uyğun peşə-ixtisas hazırlığına, elmi ad və elmi dərəcələrə, elmi-pedaqoji təcrübəyə malik Azərbaycan Respublikası vətəndaşları, həmçinin mövcud qanunvericiliyin tələbləri gözlənilməklə xarici ölkə vətəndaşları iştirak edə bilərlər.

İddiaçılar müsabiqənin keçirilməsi üçün sənədlərini Azərbaycan Dövlət Mədəniyyət və İncəsənət Universitetinə göndərə bilərlər.

**Ünvan:** Bakı şəhəri, AZ 1065, İnşaatçılar 39

**Telefon:** 599-00-54 (daxili-100)

**REKTORLUQ**

# Etibarsız sayılır

**Qərbi Kaspi Universiteti** tərəfindən 2017-ci ildə Ağayeva Səbinə Çingiz qızına verilmiş A-142964 nömrəli bakalavr diplomu itdiyi üçün etibarsız sayılır.

**Ağdam rayon** 149 nömrəli tam orta məktəbi (Bakı şəhər 333 nömrəli tam orta ümumtəhsil məktəbin balansı) 2022-ci ildə bitirmiş Rüstəmov Ramazan Zal oğluna verilmiş E-535592 nömrəli tam orta təhsil haqqında fərqlənmə attestatı itdiyi üçün etibarsız sayılır.

**Göyçay Dövlət Texnologiya Kolleci** tərəfindən 2012-ci ildə Rəsulov Şamil Bəylər oğluna verilmiş AA-020027 nömrəli subbakalavr diplomu və diploma əlavə itdiyi üçün etibarsız sayılır.

**Azərbaycan Dövlət İqtisad Universiteti** tərəfindən 2008-ci ildə Hüseynov Fuad Rəfail oğluna verilmiş B-129083 nömrəli bakalavr diplomu və diploma əlavə itdiyi üçün etibarsız sayılır.

**Quba rayon** Qalayxudat kənd ümumi orta ümumtəhsil məktəbin VIII sinfini 1984-cü ildə bitirmiş Bayramov Bayram Zeynal oğluna verilmiş 622401 nömrəli ümumi orta təhsil haqqında attestat itdiyi üçün etibarsız sayılır.

**Naxçıvan Dövlət Universiteti** tərəfindən 2018-ci ildə Həsənova Duyğu Ərrəhman qızına verilmiş C-015292 nömrəli bakalavr diplomu və diploma əlavə itdiyi üçün etibarsız sayılır.

**Bakı şəhər** 135 nömrəli tam orta məktəbi 2001-ci ildə bitirmiş Əliyeva İlahə Kərəm qızına verilmiş A-441128 nömrəli tam orta təhsil haqqında attestat itdiyi üçün etibarsız sayılır.

**Bakı şəhər** 154 nömrəli tam orta ümumtəhsil məktəbin IX sinfini 2019-cu ildə bitirmiş Əyyublu İlqar Vüqar oğluna verilmiş C-231714 nömrəli ümumi orta təhsil haqqında attestat itdiyi üçün etibarsız sayılır.

**5 nömrəli Bakı Peşə məktəbi** tərəfindən 2021-ci ildə Əyyublu İlqar Vüqar oğluna verilmiş A-149113 nömrəli diplom itdiyi üçün etibarsız sayılır.

**Göyçay şəhər** 6 nömrəli tam orta məktəbi 2004-cü ildə bitirmiş Mahmudova Nərgiz Elşad qızına verilmiş B-083733 nömrəli tam orta təhsil haqqında attestat itdiyi üçün etibarsız sayılır.

**11 nömrəli inteqrasiya təlimli İnternat məktəbini** 2017-ci ildə bitirmiş Həmzətov Hakim Anar oğluna verilmiş D-006034 nömrəli ümumi orta təhsil haqqında şəhadətnamə itdiyi üçün etibarsız sayılır.

**Bakı Slavyan Universiteti** tərəfindən 2006-cı ildə Atayeva Camilə Teymur qızına verilmiş B-075410 nömrəli bakalavr diplomu və diploma əlavə itdiyi üçün etibarsız sayılır.

**Bərdə rayon** Saatlı kənd tam orta ümumtəhsil məktəbi 2007-ci ildə bitirmiş Məcidzadə Niyaməddin Cəlil oğluna verilmiş B-457353 nömrəli tam orta təhsil haqqında attestat itdiyi üçün etibarsız sayılır.

**Sumqayıt şəhər** 1 nömrəli tam orta ümumtəhsil məktəbin IX sinfini 2024-cü ildə bitirmiş Bədəlzadə İbrahim Şahin oğluna verilmiş F-003455 nömrəli ümumi orta təhsil haqqında attestat itdiyi üçün etibarsız sayılır.

**Bakı şəhər** 258 nömrəli tam orta məktəb tərəfindən 2023-cü ildə Zülfiqarova Leyla Həsənxan qızına eksternat qaydada verilmiş E-558229 nömrəli tam orta təhsil haqqında attestat itdiyi üçün etibarsız sayılır.

**Azərbaycan Dövlət İqtisad Universiteti** tərəfindən 2010-cu ildə Həsənli Pəri Kamal qızına verilmiş B-173874 nömrəli fərqlənmə bakalavr diplomu və diploma əlavə itdiyi üçün etibarsız sayılır.

**Azərbaycan Dövlət İqtisad Universiteti** tərəfindən 2024-cü ildə Mövsümzadə Aysel Mübariz qızına verilmiş C-221043 nömrəli fərqlənmə bakalavr diplomu və diploma əlavə itdiyi üçün etibarsız sayılır.

**Bakı şəhər** 207 nömrəli tam orta məktəbi 2024-cü ildə bitirmiş Abdullayeva Xədicə Fəhmin qızına verilmiş E-665720 nömrəli tam orta təhsil haqqında attestat itdiyi üçün etibarsız sayılır.

**Bakı şəhər** 116 nömrəli tam orta ümumtəhsil məktəbi 2014-cü ildə bitirmiş Məmmədova (İsmayılova) Aynur Əbdül qızına verilmiş A-304087 nömrəli tam orta təhsil haqqında attestat itdiyi üçün etibarsız sayılır.

**Ağdaş şəhər** M.İsayev adına tam orta ümumtəhsil məktəbi 1999-cu ildə bitirmiş Məmmədov İlkin Fərhad oğluna verilmiş A-342234 nömrəli tam orta təhsil haqqında attestat itdiyi üçün etibarsız sayılır.

**Ağdaş şəhər** 8 nömrəli tam orta ümumtəhsil məktəbi 2001-ci ildə bitirmiş Məmmədova Şəlalə Baqi qızına verilmiş A-524558 nömrəli tam orta təhsil haqqında attestat itdiyi üçün etibarsız sayılır.

**Qusar şəhər** 1 nömrəli tam orta ümumtəhsil məktəbi 2024-cü ildə bitirmiş Zöhrəbəyov Mirzəqulu Cavanşir oğluna verilmiş E-704933 nömrəli tam orta təhsil haqqında attestat itdiyi üçün etibarsız sayılır.

**Qusar şəhər** 2 nömrəli tam orta ümumtəhsil məktəbi 1986-cı ildə bitirmiş Ağasiyev Tərlan Telman oğluna verilmiş A-168533 nömrəli tam orta təhsil haqqında attestat itdiyi üçün etibarsız sayılır.

**Cəlilabad rayon** Xanəgah kənd tam orta məktəbin IX sinfini 1997-ci ildə bitirmiş Ramazanova (Abbasova) Zəhra Fətan qızına verilmiş B-181104 nömrəli ümumi orta təhsil haqqında attestat itdiyi üçün etibarsız sayılır.

**Lənkəran şəhər** 3 nömrəli tam orta ümumtəhsil məktəbi 2008-ci ildə bitirmiş Əliquluzadə Orxan Şabanəli oğluna verilmiş B-645450 nömrəli tam orta təhsil haqqında attestat itdiyi üçün etibarsız sayılır.

**Azərbaycan Dövlət İqtisad Universiteti** tərəfindən 2024-cü ildə Mehrəliyeva Nərmin Hikmət qızına verilmiş AM-065977 nömrəli magistr diplomu və diploma əlavə itdiyi üçün etibarsız sayılır.

**Qusar rayon** Mucuq kənd tam orta ümumtəhsil məktəbi 2019-cu ildə bitirmiş Şixseyidov Şamil Abubikər oğluna verilmiş E-187497 nömrəli tam orta təhsil haqqında attestat itdiyi üçün etibarsız sayılır.

**Qusar rayon** Urva kənd tam orta ümumtəhsil məktəbi 2006-cı ildə bitirmiş Mehmandarov Radik Qarabəy oğluna verilmiş B-317681 nömrəli tam orta təhsil haqqında attestat itdiyi üçün etibarsız sayılır.

**Qusar rayon** Çiləgir kənd tam orta ümumtəhsil məktəbi 2002-ci ildə bitirmiş Babayev Elmir Novruz oğluna verilmiş A-592894 nömrəli tam orta təhsil haqqında attestat itdiyi üçün etibarsız sayılır.

**Bakı Humanitar Kolleci** (Azərbaycan Dövlət Mədəniyyət və İncəsənət Universitetinin nəzdində Humanitar Kolleci) tərəfindən 2022-ci ildə Qasımzadə Raul Mərdan oğluna verilmiş AA-169313 nömrəli diplom itdiyi üçün etibarsız sayılır.

**Bərdə rayon** Qaradəmirçi kənd tam orta məktəbi 2006-cı ildə bitirmiş Abbasova Vəfa Mehman qızına verilmiş B-306177 nömrəli tam orta təhsil haqqında attestat itdiyi üçün etibarsız sayılır.

Bakı şəhər 158 nömrəli tam orta məktəbin IX sinfini 2010-cu ildə bitirmiş Məmmədova Nüşabə Ədalət qızına verilmiş A-972743 nömrəli ümumi orta təhsil haqqında şəhadətnamə itdiyi üçün etibarsız sayılır.

**Bakı şəhər** 123 nömrəli tam orta məktəbi 2019-cu ildə bitirmiş Əliyev Əbülfəz Firudin oğluna verilmiş E-198586 nömrəli tam orta təhsil haqqında attestat itdiyi üçün etibarsız sayılır.

**Şahbuz rayon** Kolanı kənd tam orta məktəbin IX sinfini 2014-cü ildə bitirmiş Musayeva (Kamilbəyli) Pərvanə Fəqan qızına verilmiş A-381772 nömrəli ümumi orta təhsil haqqında attestat itdiyi üçün etibarsız sayılır.

**Bakı şəhər** 226 nömrəli tam orta məktəbin IX sinfini 2020-ci ildə bitirmiş Dəmirov İsmayıl Ruslan oğluna verilmiş C-356154 nömrəli ümumi orta təhsil haqqında attestat itdiyi üçün etibarsız sayılır.

**Saatlı rayon** 1 nömrəli tam orta ümumtəhsil məktəbi 2009-cu ildə bitirmiş Əzizova Ağabikə Balakişi qızına verilmiş 655081 nömrəli tam orta təhsil haqqında attestat itdiyi üçün etibarsız sayılır.

**1 nömrəli Gəncə Peşə Məktəbini** 2021-ci ildə bitirmiş Hüseynov Muraz Elnur oğluna verilmiş E-353398 nömrəli tam orta təhsil haqqında attestat itdiyi üçün etibarsız sayılır.

**Naxçıvan şəhər** 12 nömrəli tam orta məktəbi 2021-ci ildə bitirmiş Nəzərov Murad Nuşirəvan oğluna verilmiş E-385596 nömrəli tam orta təhsil haqqında attestat itdiyi üçün etibarsız sayılır.

**Bakı Özəl Türk Liseyinin Mingəçevir filialını** 2011-ci ildə bitirmiş Hacızadə Anar Vüqar oğluna verilmiş A-006932 nömrəli tam orta təhsil haqqında attestat itdiyi üçün etibarsız sayılır.

**Göyçay rayon** Alpout kənd tam orta ümumtəhsil məktəbi 1995-ci ildə bitirmiş Orucova Səba Sabir qızına verilmiş A-033417 nömrəli tam orta təhsil haqqında attestat itdiyi üçün etibarsız sayılır.

**Bakı şəhər** 211 nömrəli tam orta ümumtəhsil məktəbi 2015-ci ildə bitirmiş Əliyeva Leyla Hacı qızına verilmiş A-400253 nömrəli tam orta təhsil haqqında attestat itdiyi üçün etibarsız sayılır.

**Sumqayıt şəhər** 24 nömrəli tam orta ümumtəhsil məktəbi 1993-cü ildə bitirmiş Balakişizadə Əhməd Murad oğluna verilmiş A-004484 nömrəli tam orta təhsil haqqında attestat itdiyi üçün etibarsız sayılır.

**Saatlı şəhər** 4 nömrəli tam orta ümumtəsil məktəbi 2004-cü ildə bitirmiş İbrahimova (Amanova) Nigar Nazim qızına verilmiş B-023302 nömrəli tam orta təhsil haqqında attestat itdiyi üçün etibarsız sayılır.

**Cəbrayıl rayon** 10 nömrəli tam orta ümumtəhsil məktəbi 2006-cı ildə bitirmiş Şirinova Fərqanə Rəşid qızına verilmiş B-348947 nömrəli tam orta təhsil haqqında attestat itdiyi üçün etibarsız sayılır.

**Bakı şəhər** 120 nömrəli tam orta məktəbin IX sinfini 2004-cü ildə bitirmiş Cabarova Nəzirə Oqtay qızına verilmiş əsas təhsil haqqında şəhadətnamə itdiyi üçün etibarsız sayılır.

**Ağdaş Dövlət Humanitar Kolleci** tərəfindən 2012-ci ildə Mahmudova (Lətifova) İlqarə İbrahim qızına verilmiş AA-019671 nömrəli diplom itdiyi üçün etibarsız sayılır.

**Bakı şəhər** 240 nömrəli tam orta məktəbi 2000-ci ildə bitirmiş Əhmədova Könül Cavanşir qızına verilmiş A-409833 nömrəli tam orta təhsil haqqında attestat itdiyi üçün etibarsız sayılır.

**Zaqatala şəhər** 1 nömrəli tam orta məktəbi 1979-cu ildə bitirmiş Səfərov Səfər Şövkət oğluna verilmiş 275194 nömrəli tam orta təhsil haqqında attestat itdiyi üçün etibarsız sayılır.

**Goranboy rayon** Dəyirmanlar kənd tam orta ümumtəhsil məktəbin IX sinfini 2013-cü ildə bitirmiş Həsənov Hüseyn Elçin oğluna verilmiş A-336478 nömrəli ümumi orta təhsil haqqında attestat itdiyi üçün etibarsız sayılır.

**Qərbi Kaspi Universiteti** tərəfindən 2023-cü ildə Osmanlı Fərid Həsən oğluna verilmiş C-185867 nömrəli bakalavr diplomu və diploma əlavə itdiyi üçün etibarsız sayılır.

**Bakı Sənaye Pedaqoji Kolleci** (indiki ADPU-nun nəzdində Azərbaycan Dövlət Pedaqoji Kolleci) tərəfindən 2013-cü ildə Abdullayev Elgün Rəhman oğluna verilmiş AA-027859 nömrəli diplom itdiyi üçün etibarsız sayılır.

**Ağdərə rayon** Göyarx kənd tam orta ümumtəhsil məktəbi (keçmiş Tərtər rayon Şıxarx kənd 1 nömrəli tam orta məktəb) 2024-cü ildə bitirmiş Musazadə Murad Rövşən oğluna verilmiş E-716993 nömrəli tam orta təhsil haqqında attestat itdiyi üçün etibarsız sayılır.

**Bakı şəhər** 257 nömrəli tam orta məktəbi 2020-ci ildə bitirmiş Nəbiyev Emil Mustafa oğluna verilmiş E-273780 nömrəli tam orta təhsil haqqında attestat itdiyi üçün etibarsız sayılır.